# TOVUZ

VƏTƏN, XEYİRXAHLIQ, ƏDALƏT UĞRUNDA!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1929-cu ildən çıxır * № 03-04 (7509-7510) * 9 fevral 2018-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik



**Sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, aksiomadır. Bunu biz yaxın tarixdə dəfələrlə görmüşük. Sabitlik pozulan zaman inkişaf da dayanır, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır, sərmayə qoyuluşu dayanır. Bir sözlə, sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Azərbaycanda isə sabitliyin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və eyni zamanda, bizim apardığımız siyasətdir. Çünki bizim siyasətimiz milli maraqlara söykənir, milli maraqlarımız bizim üçün hər şeydən üstündür. Ölkəmizin təhlükəsizliyi, sabitliyi, iqtisadi və sosial inkişafı, beynəlxalq arenadakı artan rolu sabitliyin təminatçısıdır.**

***İlham Əliyev,***

***Azərbaycan Respublikasının Prezidenti***

# 2017-ci ilin yekunları rayonumuz üçün uğurlu olmuşdur

***Fevral ayının 7-də Tovuz rayon mədəniyyət mərkəzində RİH başçısı yanında geniş Şura iclası keçirilmişdir. RİH-in başçısı cənab Tofiq Məhəmmədəli oğlu Zeynalov “2017-ci ildə görülən işlər və qarşıda duran vəzifələr barədə” hesabat məruzəsi ilə çıxış etmişdir. Həmin məruzədən əsas müddəaları diqqətinizə çatırırıq.***

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə yanvar ayının 10-da Nazirlər Kabinetinin 2017-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlətimizin başçısı statistik rəqəmlər əsasında ötən ilin uğurlarını açıqlamaqla 2018-ci ilə böyük inamla baxmağımıza güclü stimul verdi. Verilən proqnozlar özünü doğrultdu, 2017-ci il üçün nəzərdə tutulan hədəflər gerçəkliyə çevrildi. Azərbaycanın iqtisadi nailiyyətləri, təkmil islahatları beynəlxalq maliyyə qurumlarının hesabatlarında da öz əksini tapdı. Həm Dünya Bankı, həm Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda gedən proseslərə yüksək qiymət verdi. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək dünya miqyasında 35-ci yerdə qərarlaşdı. Dünya İqtisadi Forumunun hazırladığı inklüziv inkişaf indeksi insanların öz ölkələrində iqtisadi tərəqqini qiymətləndirmə meyarlarını daha dəqiq əks etdirir. Bu ilki hesabatda Azərbaycan Litva və Macarıstandan sonra üçüncü pillədə qərarlaşıb. Bu, hər şeydən əvvəl son illərdə ölkəmizdə uğurla reallaşdırılan iqtisadi islahatların, həyata keçirilən siyasətin xalq tərəfindən dəstəklənməsinin məntiqi nəticəsidir.

Statistik rəqəmlərə diqqət yetirək. Keçən il ölkəmizdə qeyri-neft sektoru 2,5 faiz, qeyri-neft sənayesi 3,6 faiz, kənd təsərrüfatı isə 4,1 faiz artıb. Valyuta ehtiyatlarımız 4,5 milyard artmış, hazırda təxminən 42 milyard dollar təşkil edir. Ölkə iqtisadiyyatına 14,6 milyard dollar sərmayə qoyulub. İxrac potensialımız 19 faiz, qeyri-neft ixracı 24 faiz artıb. Azərbaycanı 2017-ci ildə 2016-cı ildəkindən 500 min çox turist ziyarət edib. Ötən il Azərbaycanın ticarət balansının müsbət saldosu 6,2 milyard dollar təşkil edib.

Ölkə başçımızın tapşırıqları əsasında keçən il infrastruktur layihələrinin icrası uğurla davam etdirilib, bu məqsədlər üçün böyük vəsait ayrılıb və bunun əsasında növbəti nailiyyətlər qeydə alınıb. Yeni yarımstansiyalar işə düşüb, qazlaşdırılma 93 faizə çatıb, 100 min hektardan çox sahə ilk dəfə suvarıl-



mağa başlayıb, 1300 kilometr avtomobil yolu çəkilib, o cümlədən, 500-dən çox kəndə yeni yol salınıb, içməli su layihələri uğurla icra edilib. Ötən il 133 yeni məktəb tikilib, 14 məktəb əsaslı təmir edilib, 500-ə yaxın məktəbdə isə cari təmir işləri aparılıb, 30 tibb müəssisəsi tikilib və əsaslı təmir edilib, 2 olimpiya idman kompleksi istifadəyə verilib.

Ölkəmizdə əsaslı iqtisadi islahatların aparılması güclü sosial siyasətlə tamamlanır. Aztəminatlı ailələrin sosial müdafiəsinin etibarlı təminatı üçün atılan addımlar insanların yaşayış tərzini daha da yaxşılaşdırır.

2017-ci ildə 116 min ailə, 400 mindən artıq insan ünvanlı sosial yardımla təmin edilmiş, orta hesabla hər ailəyə 150 manat sosial yardım göstərilmişdir. Bununla belə, cənab Prezident qeyd etmişdir ki, “biz çalışmalıyıq ki, ağır vəziyyətdə yaşayan vətəndaşları işlə təmin edək, onlar üçün şərait yaradaq, o cümlədən, onları özünüməşğulluq proqramı çərçivəsində işə cəlb edək ki, ünvanlı sosial yardıma ehtiyacı olanların sayı azalsın”.

Ölkə başçımız ötən il 30-dan çox rayona səfər edib, yeni müəssisələrin açılışında, təməlqoyma mərasimlərində iştirakçı olub, bölgələrdə gedən vəziyyətlə əyani şəkildə tanış olaraq müvafiq tapşırıqlar və tövsiyyələr verib, habelə, qanunvericilik aktları imzalayıb.

**(Davamı 2-ci səhifədə)**

# 2017-ci ilin yekunları rayonumuz üçün uğurlu olmuşdur

**(Əvvəli 1-ci səhifədə)**

Ümumiyyətlə, regional inkişaf proqramları əvvəlki illərdə olduğu kimi ötən ildə də uğurla icra olunub. Bu barədə yanvarın 29-da Heydər Əliyev Mərkəzində “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda ətraflı bəhs olunub.

Konfransda çıxış edən dövlətimizin başçısı qeyd etmişdir ki, “birinci proqramın qəbul edilməsi tarixi hadisə idi. Həyat bunu əyani şəkildə göstərir. 2004-cü ilin əvvəlində qəbul edilmiş proqram demək olar ki, Azərbaycanın regionlarında dönüş yaratdı. Regionların sürətli inkişafı məhz birinci proqramın icrası ilə bağlı idi. Mən, 2003-cü ildə prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, ilk növbədə Azərbaycan regionlarının problemləri ilə məşğul olacağam. Söz vermişdim ki, Azərbaycan regionlarında sosial-iqtisadi inkişaf sürətlə gedəcək. Son 14 il ərzindəki reallıqlar bunu göstərir ki, verilən bütün vədlər artıqlaması ilə yerinə yetirildi. Son 14 il ərzində Azərbaycan böyük və şərəfli yol keçmişdir. Ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atmışdır”.

Həqiqətən, cənab Prezidentin də qeyd etdiyi kimi, regional inkişaf proqramlarının icrasının nəticələri göz qabağındadır. Bu proqramların icrasının nəticəsi olaraq 14 il ərzində ölkəmizdə generasiya gücü 2500 meqavata bərabər olan 30 elektrik stansiyası tikilmiş, ölkədə qazlaşmanın səviyyəsi 51 faizdən 93 faizə, içməli su ilə təminat 26 faizdən 67 faizə çatdırılıb. Kənd təsərrüfatının inkişafı üçün böyük meliorativ tədbirlər görülmüş, Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay su anbarları tikilmişdir. Dövlət proqramları çərçivəsində 12 min 300 kilometr yol çəkilmiş, 443 körpü tikilmişdir.

Sosial infrastrukturla bağlı 14 il ərzində böyük işlər görülmüş, 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilmiş yaxud təmir edilmişdir, 43 olimpiya idman kompleksi inşa olunmuşdur. O cümlədən, 2017-ci ildə bu sahədə görülən işləri mən bir qədər əvvəl sizə çatdırdım. Dövlət proqramlarının icrası dövründə ölkədə 1,9 milyon iş yeri yardılmışdır ki, onlardan 1,4 milyonu daimi iş yeridir. 2017-ci ildə bu rəqəmlər müvafiq olaraq 221 min və 177 min olmuşdur. Hazırda işsizlik 5 faiz səviyyəsindədir. Birinci proqramın icrasına başlanıldıqda ölkədə yoxsulluğun səviyyəsi 50 faiz idi, indi isə 5,4 faizdir. Dövlət proqramlarının icrası sosial sahənin sürətli inkişafını təmin etmiş, maaşlar 5 dəfədən çox, pensiyalar isə 8 dəfədən çox artmış və bir çox önəmli sosial layihələr icra edilmişdir.

Cənab Prezident konfransdakı çıxışında bildirmişdir ki, 14 il ərzində iqtisadi göstəricilərimiz də ümumi inkişafımızın uğurlu dinamikasını əyani şəkildə göstərir. İqtisadiyyat bu dövrdə 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı isə 2,8 dəfə artmışdır. Sənaye sahəsində 2,6 dəfə, kənd təsərrüfatında 1,7 dəfə artım var. Qeyri-neft ixracımız 4,1 dəfə artmışdır. Bu dövrdə ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulmuşdur. Bunun yarısı xarici, yarısı isə daxili sərmayədir. Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan yenə də dünya miqyasında lider dövlətlər sırasındadır. Müstəqillik dövründə Azərbaycana yatırılan sərmayənin 93 faizi son 14 il ərzində qoyulmuşdur.



2017-ci ildə ölkəmizdə energetika və nəqliyyat sahəsində tarixi hadisələr baş verdi. Azəri-Çıraq-Günəşli yatağı üzrə kontraktın müddətinin 2050-ci ilə qədər uzadılması bundan sonra uzun illər ərzində hasilat səviyyəsinin sabit qalmasına imkan verəcək. TANAP və TAP layihələri üzrə nəzərdə tutulan işlər uğurla icra olunmuşdur. Həmçinin, transmilli nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində önəmli addımlar atılıb. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı nəinki Azərbaycan, bölgə üçün, dünya üçün önəmli hadisə olub və əlbəttə ki, bu tarixi layihənin icrası Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevirməkdədir. Eyni zamanda Azərbaycan “Şimal-Cənub Nəqliyyat Dəhlizi”nin icrası istiqamətində üzərinə düşən vəzifələri də uğurla icra edib.

Konfransdakı çıxışı zamanı cənab Prezident qeyd etmişdir ki, son illər ərzində ictimai xidmətlər sahəsində inqilabi dönüş baş verdi. “ASAN xidmət” mərkəzlərinin yaradılması bu sahədə inqilabi dönüş etdi. Son 5 il ərzində bu mərkəzlərdə 20 milyona yaxın müraciət qəbul edilmişdir və “ASAN xidmət” mərkəzlərini bəyənmə əmsalı 100 faizə yaxındır. Bu il 3 “ASAN xidmət” mərkəzləri fəaliyyətə başlayacaq və bununla mərkəzlərin sayı 15-ə çatacaq. Daha 5 şəhərdə isə “ASAN xidmət” mərkəzlərinin tikintisinə başlanacaq.

Dövlətimizin başçısının 23 sentyabr 2016-cı il tarixli “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Dövlət Agentliyinin tabeliyində “ABAD” publik hüquqi şəxsin yaradılması haqqında” Fərmanı da şəffaflığın təminatı, eyni zamanda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində növbəti mühüm addımlardan oldu. “ABAD” mərkəzinin yaradılması ailə biznesinə böyük dəstəkdir.

2017-ci ilin “İslam Həmrəyliyi İli” elan edilməsi və bununla bağlı aparılan işlər göstərdi ki, Azərbaycan xalqı öz tarixi və dini köklərinə bağlıdır. Azərbaycan dünya miqyasında həm islam həmrəyliyi işlərinin təşkili, eyni zamanda, multikulturalizmin təbliği üçün əvəzolunmaz ölkədir.

Ötən il daha bir möhtəşəm tarixlə - Azərbaycanda IV İslam Həmrəyliyi Oyunları ilə yaddaşlara həkk olundu. Azərbaycan siyasi, diplomatik, iqtisadi uğurlar məcrasında idman sahəsində də həmin nailiyyətləri qazanıb və zəfərlər sırasına daxil edib. İslam Həmrəyliyi Oyunları dünyada İslam Həmrəyliyinin gücləndirilməsi istiqamətində atılan önəmli addımdır, Azərbaycanın niyyətinin və siyasətinin göstəricisidir.

Dövlət başçımız 2018-ci ilin Azərbaycanda “Azərbaycan Xalq Cümhurriyyəti ili” olduğunu bəyan edib və xatırladıb ki, “Azərbaycan o, ölkələrdəndir ki, hələ 100 il bundan əvvəl, ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bu günkü Azərbaycan müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Bu günkü Azərbaycan Cümhuriyyətin bütün demokratik ənənələrinə sadiqdir və bu ənənələri yaşadır”.

Cənab İlham Əliyev iclasda uğurlarımıza söykənərək qarşıda duran vəzifələri də açıqlamışdır. Azərbaycanın hərtərəfli inkişafını təmin etmək, əhalinin sosial müdafiəsini gücləndirmək hər zaman olduğu kimi, bu gün də prioritetdir. Hər bir hədəf islahatların davamlılığını bir tələb kimi qarşıya qoyur. Görüləcək işlərin kifayət qədər böyük olduğunu qeyd edən cənab Prezident bu əminliyi ifadə etmişdir ki, onların həyata keçirilməsi nəticəsində ölkə iqtisadiyyatında dinamika daha da sürətlənəcək, 2018-ci il də ölkəmiz üçün uğurlu olacaqdır.

2017-ci ilin yekunları rayonumuz üçün də uğurlu olmuşdur. Bütövlükdə makroiqtisadi göstəricilərdə dinamika müşahidə olunur. 2016-cı illə müqayisədə hesabat dövrü rayonda iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi müqayisəli qiymətlərlə 6 faiz artaraq 388 milyon 133 min manat olmuşdur. Bunun ümumi həcminin 61,4 faizi istehsal, 38,6 faizi isə xidmət sahələrinin payına düşür. Müqayisə olunan dövrdə sənaye məhsulunun həcmi faktiki qiymətlərlə 36,4 faiz, əsas kapitala yönəlmiş vəsaitlər 82,4 faiz, nəqliyyat sektorunda yük daşınması 2,9 faiz, rabitə xidmətlərinin həcmi 9,5 faiz, pərakəndə ticarət dövriyyəsi 14,1 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər 13,5 faiz artmışdır.

Xüsusilə qeyri-neft sektorunun inkişafı sahəsində bir sıra mühüm işlər görülmüşdür. Qeyri-neft sektorunun aparıcı sahəsi kimi kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirilir.

Ötən il rayon üzrə 196 milyon 368 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da əvvəlki ildəkindən faktiki qiymətlərlə 23 milyon 670 manat çoxdur.

Biz keçən ildən kənd təsərrüfatının ənənəvi sahələrinin dirçəldilməsinə başlamışıq. Mövsüm ərzində 6 min 870 kiloqram barama tədarük edilmişdir. Bu sahədə 2016-cı ilə nisbətən 4,4 dəfə artım var. Baramaçılığa dövlət qayğısı olaraq 26 nəfər kümçüyə 32 min 499 manat subsidiya verilmişdir. Cari il üçün hədəfimiz barama istehsalını 10 tona çatırmaqdır. Baramaçılığın yem bazasının möhkəmləndirilməsi üçün lazımi dövlət dəstəyi vardır. Biz 2016-cı ildə 10 min ədəd xaricdən gətirilmiş tut tingləri, 4 min ədəd yerli tinglər əkmişdik. Ötən il isə daha 3 min ədəd xaricdən gətirilmiş ting və 5 min ədəd yerli tut tingləri əkilmişdir. Qarşıdakı dövrdə baramaçılığın daha da genişləndirilməsi və müvafiq Dövlət proqramına uyğun olaraq rayonda baramaqurutma məntəqəsinin açılması nəzərdə tutulur.

Rayonda tütünçülüyün inkişafı istiqamətində işlər sürətlə davam etdirilir. 2016-cı ildə biz tütünçülüyün bərpası ilə məşğul olmağa başladıq və həmin il cəmi 1624 kiloqram məhsul istehsal olundu. 2017-ci ildə isə tütün əkini sahələri 50 hektara çatdırıldı və 50,6 ton quru tütün istehsal olunub tədarük məntəqələrinə təhvil verildi. Fermerlərə 1 kiloqram quru tütün üçün 5 qəpik hesabı ilə subsidiya hesablanmışdır. Tütünçülük sahəsinə mövsüm ərzində 200 nəfərdən çox işçi qüvvəsi cəlb edilmişdir.

Ötən il rayon ərazisində 410 hektar sahədə şəkər çuğunduru əkilmiş və 4 min ton məhsul istehsal olunmuşdur. Bu sahədə 1359 nəfər mövsümi işçi çalışmışdır. Fermerlərə 1 tonu 4 manat olmaqla 16 min manat subsidiya hesablanmışdır.

Göründüyü kimi, çuğundur əkinində məhsuldarlıq lazımi səviyyədə olmamışdır.

Bunun bir səbəbi suvarma suyunun çatışmamazlığı, digər bir səbəbi isə bəzi hallarda fermerlər tərəfindən əkin yerlərinin düzgün seçilməməsi ilə bağlı olmuşdur.

Nazirlər Kabinetinin iclasında cənab Prezident haqlı olaraq bu məsələyə toxunaraq bildirmişdir ki, “Çuğundur o bölgələrdə əkilməlidir ki, orada şəkərlilik və məhsuldarlıq daha yüksək olur”.

Cənab Prezidentin qeyd etdiyi bu meyarlara ciddi surətdə əməl etməklə kənd təsərrüfatı idarəsi İmişli şəkər zavodunun mütəxəssisləri ilə birlikdə cari ilin məhsulu üçün çuğundur əkini sahələrinin düzgün seçilməsində fermerlərə kömək göstərməlidir.

2017-ci ildə 21 min 117 hektar sahədə dənli bitkilər əkilmişdir, bundan 19 min 526 hektarı buğda sahələridir. Buğdanın hər hektarından məhsuldarlıq 32,3 sentner olmaqla 62 min 994 ton məhsul istehsal edilmişdir. Əvvəlki illə müqayisədə 31 min 358 ton çox buğda istehsal olunmuşdur.

**(Davamı 3-cü səhifədə)**

# 2017-ci ilin yekunları rayonumuz üçün uğurlu olmuşdur

**(Əvvəli 2-ci səhifədə)**

Cənab Prezident çıxışında taxıl sahələrində hər hektardan minumum 50 sentner məhsul götürülməsini bir tələb kimi qarşıya qoymuşdur və biz buna nail olmalıyıq. Ötən il 7 min 375 hektar sahədə kartof əkilmiş, 169 min tondan çox məhsul götürülmüşdür. Hər hektardan məhsuldarlıq 230,1 sentner təşkil etmişdir. Bəzi digər məhsul növləri üzrə əkin sahələrinin genişləndirilməsi səbəbindən kartof əkini sahələrinin azalması məhsul istehsalının da müəyyən qədər azalmasına səbəb olmuşdur. Bu itkini məhsuldarlığın yüksəldilməsi hesabına bərpa etmək fikirindəyik. Ötən il buna müəyyən dərəcədə nail olmuşuq, lakin bunu qənaətləndirici hesab etmirik. Kartofçuluğu inkişaf etdirmək üçün keyfiyyətli toxumun alınıb cücərdilməsi istiqamətində işlər aparılır. Ötən ilin payızında Rusiya, Türkiyə və Ukraynadan 2 min 270 ton kartof toxumu gətirilmişdir. Kartof toxumu idxalı indi də davam etməkdədir. Bu isə cənab Prezidentin qeyd etdiyi kimi, ölkədən valyuta axını deməkdir. Biz rayonun dağ kəndlərində ənənəvi toxumçuluğun genişləndirilməsi üçün tədbirlər görməyi nəzərdə tuturuq.

Ötən il 1499 hektar sahədə tərəvəz əkilmişdir. Həmin sahələrdən 26 min 404 ton məhsul götürülmüşdür. O cümlədən, ümümi sahəsi 44 hektar olan istixanalarda 4396 ton məhsul istehsal olunmuş və il ərzində 4 milyon 317 min manatlıq məhsul satılmışdır. İstehsal olunan məhsulların əsas hissəsi xarici ölkələrə ixrac olunmuşdur. Keçən il əlavə olaraq 5 hektar sahədə yeni istixanalar yaradılmış və bu sahəyə 1 milyon 47 min manat özəl sərmayə yatırılmışdır. Qarşıdakı dövrdə istixanaların ümumi sahəsinin 100 hektara çatdırılması nəzərdə tutulur.

Son illər yerkökü əkini tərəvəzçilikdə çox gəlirli bir sahə kimi özünü doğrultmuşdur. 2017-ci ildə rayonda 380 hektar sahədə yerkökü əkilmiş, 9 min 630 ton məhsul istehsal olunmuş və əsasən xarici bazarlara çıxarılmışdır. İqtisadi səmərəliliyi bu əkin növünə marağı xeyli artırmış və onun coğrafiyası genişlənməkdədir.

Rayonda üzümçülüyün inkişafı qarşımızda duran ən ümdə məsələdir. Ötən il rayonda üzümçülüyə 548 min manat özəl sərmayə qoyulmuş, 56 hektar sahədə yeni üzümlüklər salınmış və üzüm bağlarının ümumi sahəsi 720 hektara çatdırılmışdır. Müvafiq Dövlət proqramına uyğun olaraq bu sahədə lazımi işlər aparılır. Üzüm sahələrinin genişləndirilməsində fermerlərin maraqları müşahidə olunmaqdadır.

Bununla belə üzümçülüyün emal bazası ilə bağlı problem bu gün də gündəmdədir. Nazirlər Kabinetinin iclasında cənab Prezident şərab zavodlarının fəaliyyətinin gücləndirilməsi və şərab ixracının artırılmasının zəruriliyindən bəhs etmiş, bununla bağlı müvafiq tapşırıqlar vermiş, çağırışlar etmişdir.

Dövlət başçımızın əsas diqqət yetirdiyi məsələlərdən biri də ilk növbədə kənd təsərrüfatı məhsulları hesabına ixracın şaxələndirilməsidir. Əsas ixrac məhsulları kimi fındıq, xurma, nar və digər meyvə bağlarının genişləndirilməsi qarşıya qoyulmuşdur. Keçən il 127 hektar sahədə müxtəlif meyvə bağları salınmış və meyvə bağlarının ümumi sahəsi 1312 hektara çatdırılmışdır. Alakol kəndində 33 hektar, Aşağı Quşçu kəndində isə 15 hektar sahədə xaricdən gətirilmiş yüksək məhsuldar meyvə sortları əkilmiş və bu işə 407 min manat özəl sərmayə qoyulmuşdur. Müasir bağçılıq təsərrüfatları digər yaşayış məntəqələrində də yaradılmaqdadır.

2017-ci il ərzində xarici bazarlara 13 milyon 12 min manat dəyərində 23 min 185 ton məhsul göndərilmişdir. O cümlədən 4 min 300 ton pomidor-xiyar, 7 min ton yer kökü, 10 min ton kartof, 1885 ton meyvə ixrac edilmişdir. Bundan əlavə ötən il xarici bazarlara 1700 ton xurma, 80 ton gilas, 50 ton ərik, 50 ton nar, 5 ton fındıq göndərilmişdir. Rayonun ixrac potensialının gücləndirilməsi istiqamətində işlər davam etdirilir.

Hazırda rayonda kənd təsərrüfatı məhsullarının saxlanılması və ilin bütün fəsillərində təzə-tər şəkildə bazarlara məhsul çıxarılması üçün ümumi tutumu 9160 ton olan 14 ədəd soyuducu kameralar, ümumi tutumu 39 min ton olan 2 ədəd taxıl anbarı fəaliyyətdədir. Onu da deyim ki, cari ilin yanvar ayında Əyyublu kəndində kənd təsərrüfatı məhsullarının saxlanılması üçün 1200 tonluq yeni soyuducunun tikintisinə başlanmışdır.

Ötən il bitkiçilik sahəsində çalışan 13 min 554 subyektə 12 min 630 hektar əkinə görə 895 min 555 manat subsidiya hesablanıb ödənilmişdir. Bu dövrdə lizinq yolu ilə əhaliyə güzəştli qiymətlərlə 3 min 20 ton mineral gübrələr satılmışdır. Rayonun mineral gübrələrə və kənd təsərrüfatı texnikasına olan tələbatı mütəmadi olaraq öyrənilir, təhlillər aparılır və təchizatla bağlı aidiyyəti qurumlar qarşısında məsələ qaldırılır.

Rayonda heyvandarlığın inkişafı məsələləri diqqət mərkəzində saxlanılır. 2017-ci ilin sonuna təsərrüfatlarda 43 min 849 baş iri buynuzlu, 199 min 880 baş qoyun və keçilər, 473 min 971 baş quş olmuşdur. Əvvəlki illə müqayisədə müəyyən artım olsa da bunu kifayətləndirici hesab etmirik. Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması yolu ilə heyvanların, o cümlədən, ana heyvanların sayının artırılması istiqamətində işlər aparılır. 2017-ci il ərzində heyvandarlıq təsərrüfatlarında 540 baş heyvan süni mayalandırılmış və 318 baş bala alınmışdır. Alınmış hər baş sağlam buzov üçün 100 manat hesabı ilə heyvandarlara 31 min 800 manat subsidiya ödənilmişdir. Ötən il 8 min 165 ton ət, 33 min 365 ton süd, 19 milyon 610 ədəd yumurta, 409 ton yun istehsal olunmuşdur. Rayon üzrə 5 min 768-dən çox arı ailəsi mövcuddur. Ötən il arıçılıqdan 55,4 ton məhsul götürülmüşdür ki, bu da əvvəlki ildəkindən 8,3 ton çoxdur. Cari mövsümdə arıçılıqla bağlı yeni layihələrin icra olunması nəzərdə tutulur.

Heyvandarlıq məhsullarının istehsalında əvvəlki illə müqayisədə artım müşahidə edilsə də, bu sahədə daha yüksək nəticələrə nail olmaq üçün tədbirlər görülür. Nazirlər Kabinetinin iclasında çıxış edərkən cənab Prezident demişdir: "Heyvandarlıqla bağlı nəticələr də yaxşıdır. Ancaq hələ ki, biz özümüzü süd və süd məhsulları ilə tam şəkildə təmin edə bilmirik. Kərə yağı, pendirlə tam təmin edə bilmirik. Ət və quş əti istehsalı artıq 100 faiz özümüzü təminetmə səviyyəsinə yaxınlaşır. Əlbəttə ki, növbəti illərdə açılacaq yeni fermalar, aqroparklar, quş fabrikləri, süd zavodları bu məsələni həll edəcək. Amma hələ ki, belə deyil. Baxmayaraq ki, bu sahədə çox böyük inkişaf var. Heyvandarlığın inkişafı üzrə Dövlət proqramı hazırlanmalıdır və qəbul edilməlidir". Cənab Prezidentin bu tələblərinin qarşılığında biz rayonumuzdakı süd zavodunun tam gücü ilə işləməsini təmin etməliyik. Hazırda tikilməkdə olan Aqropark zavodun xammal təminatını ödəyəcəkdir . Cənab Prezident eyni zamanda ərzaq təhlükəsizliyini təmin etmək üçün Aqroparkların yaradılmasını bir vəzifə kimi qarşıya qoymuşdur və bu istiqamətdə işlər görülür. Bizim rayonumuzda da ötən il 550 hektar sahədə heyvandarlıq üzrə 1000 başlıq Aqroparkın tikintisinə başlanılmışdır. Bitkiçilik sahəsi üzrə Ceyrançöl ərazisində yaradılmış Aqropark da keçən ildən fəaliyyət göstərir.

Rayon iqtisadiyyatına özəl sərmayənin cəlb olunması əsas hədəfimizdir. Təkcə 2017-ci ildə iqtisadiyyatımıza 32 milyon manat özəl investisiya cəlb olunmuşdur.

Cənab Prezident çıxışında xalçaçılığın inkişafından, yeni yaradılmış və yaradılmaqda olan xalçaçılıq fabriklərindən danışmış, onların böyük ixrac potensialı yaratdığını qeyd etmişdir. Bizim rayonda da "Azərxalça" ASC-nin Tovuz filialı yaradılmışdır və bununla da 150 yeni iş yeri açılmışdır. Burada istehsal olunan məhsullar ixracın həcmini xeyli artıracaqdır.

Rayonda torpaqların su təminatının yaxşılaşdırılması üçün meliorativ işlərin həyata keçirilməsi 2017-ci ildə də davam etdirilmişdir. Tovuzçay su anbarı üzərində nasos stansiyası quraşdırılması işi başa çatdırılmışdır. Eyni zamanda Ağdağ adlanan əraziyə və Yuxarı Öysüzlü kəndinə su verilməsi üçün ikinci pillə nasos stansiyasında quraşdırma işləri tamamlanmışdır.

Hazırda 27 yaşayış məntəqəsinin ərazisində 6839 hektar sahənin suvarılmasını təmin edən 402 ədəd subartezian quyusu fəaliyyət göstərir. Birinci Dövlət proqramı çərçivəsində 7 ədəd, ikinci dövlət proqramı çərçivəsində isə 19 ədəd (cəmi 26 ədəd) subartezian quyusu qazılıb istifadəyə verilmişdir. 2013-2017-ci illərdə isə bundan əlavə cənab Prezidentin müvafiq Sərəncamları ilə 51 ədəd subartezian quyusu qazılmışdır. Bundan 6 ədədi 2017-ci ildə qazılmış və istismara hazır vəziyyətdədir. Bu layihənin cari ildə də davam etdirilməsi nəzərdə tutulur.

Yerlərdən gələn təkliflər əsasında Azaflı və Bayramlı kəndlərində 1000 hektardan çox əkinə yararlı torpaq sahələrinin su təminatını yaxşılaşdırmaq üçün həmin ərazilərə Tovuzçay su anbarından suyun ötürülməsi və bu kəndlərin ərazisində süni göllərin yaradılması ilə bağlı aidiyyatı mərkəzi icra hakimiyyəti orqanları qarşısında məsələ qaldırılmış və hazırda həmin məsələyə baxılır. Eyni zamanda, Əlibəyli və Hacallı kəndlərinin Xunam adlanan ərazisində olan 150 hektar kənd təsərrüfat təyinatlı torpaqların suvarma suyu ilə təminatının yaxşılaşdırılması istiqamətində iş aparılır.

Cənab Prezident suvarma məsələlərindən danışarkən demişdir: "Meliorativ tədbirlərin yaxşılaşdırılması və sudan səmərəli istifadə edilməsi üçün pivot suvarma sistemlərinin geniş tətbiqi təmin olunmalıdır.

Bu məqsədlə ölkəmizdə pivot qurğularının istehsalı təşkil olunur ki, artıq xaricə vəsait getməsinin qarşısını alaq və özümüzü bu qurğularla özümüz təmin edək.

Fermer təsərrüfatlarında, xüsusilə böyük aqroparklarda bu sistemlərdən mütləq istifadə olunmalıdır. Çünki bu, məhsuldarlığı böyük dərəcədə artırır və sudan səmərəli istifadə olunmasına imkan yaradır". Cənab Prezidentin bu tapşırığı bizim rayon üçün daha xarakterikdir. Sahibkarlığın inkişafına dəstək verilməsi, sağlam biznes mühitinin yaradılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Hesabat dövründə Sahibkarlara Kömək Milli Fondu tərəfindən hüquqi və fiziki şəxslərə kənd təsərrüfatının inkişafı məqsədilə 41 layihə üzrə 1 milyon 907 min manat kredit verilmişdir. Bunun hesabına 101 iş yeri açılmışdır. Digər banklardan 4912 fiziki şəxsə 9 milyon 825 min 600 manat vəsait verilmişdir.

Rayonda ötən il 1639 yeni iş yeri açılmışdır ki, bundan 1039-u daimi iş yerləridir.



**(Davamı 4-cü səhifədə)**

# 2017-ci ilin yekunları rayonumuz üçün uğurlu olmuşdur

(Əvvəli 3-cü səhifədə)

Bütövlükdə isə 2004-2017-ci illər ərzində 24 min 227 iş yeri açılmışdır ki, bundan 15 min 954-ü daimi iş yerləridir.

Cənab Prezident nitqində özünüməşğulluq proqramına geniş yer verərək demişdir: "Bu il biz özünüməşğulluq proqramını daha da böyük həcmdə icra edəcəyik.

Bu proqramı biz demək olar ki, keçən il icra etməyə başlamışıq. İlkin nəticələr müsbətdir. Bu il isə atılan addımlar, aparılan islahatlar nəticəsində kifayət qədər böyük - 30 milyon manatdan çox vəsait olacaq və 6 min, bəlkə də 7 min ailə özünüməşğulluq proqramına cəlb ediləcək, bu gün hələ də ağır vəziyyətdə yaşayan, dövlətdən sosial yardım alan vətəndaşlar özləri pul qazanacaqlar, öz ailələrini halal zəhmətləri ilə dolandıracaqlar və öz həyatlarını quracaqlar. Dövlət isə öz dəstəyini göstərəcək, lazım olan texnikanı, vasitələri pulsuz verəcək ki, onlar öz işlərini qura bilsinlər. Əgər biz hər il 6-7 min ailə üçün belə şərait yaratsaq, onda sosial yardıma heç kimin ehtiyacı olmayacaq".

Özünüməşğulluq proqramı çərçivəsində ötən il rayonda 7 ailənin hər birinə bir baş sağmal inək, bir baş boğaz düyə, bir baş dana, bir ailəyə 1000 baş iri cücə, iki ailənin hər birinə 18 quzulu qoyun verilmişdir. Bu işlər növbəti mərhələlərdə daha çox ailələri əhatə edəcəkdir.

Ötən il 1083 ailəyə ünvanlı sosial yardım ödənilib ki, bunun da aylıq məbləği 164 min 337 manat təşkil edir.

2017-cı ildə rayon üzrə təsdiq olunmuş 9 milyon 611 min manat proqnoza qarşı büdcəyə 10 milyon 350 min manat vəsait daxil olmuş, proqnoz 107,7 faiz yerinə yetirilməklə əvvəlki ilə nisbətən 883 min manat çox vəsait daxil olmuşdur. Hesabat dövründə rayon üzrə ümumi xərclərin 76,3 faizi yerli xərclər hesabına həyata keçirilmişdir. Ötən il rayonun xərcləri 12 milyon 653 min 900 manat proqnozlaşdırılmış, 12 milyon 241 min 500 manat və ya 96,7 faiz icra olunmaqla nəzərdə tutulduğundan 412 min 400 manat az xərc edilmişdir. Bununla belə qeyd etməliyəm ki, ötən il 6 vergi növü üzrə müəyyən olunmuş proqnoz yerinə yetirilməmişdir. Bu hesaba büdcə 2 milyon manatdan çox vəsait itirmişdir. Biz özünümaliyyələşdirməni hədəf götürdüyümüz halda bu qətiyyən yolverilməzdir.

Son bir neçə ildə rayona böyük turist axınına nail olmuşuq. Bizim gözəl turizm məkanlarımız var və lazımi infrastruktur da yaradılmışdır. Hazırda rayonda eyni vaxtda 200-ə yaxın turisti qəbul edəcək otel təsərrüfatları və bilavasitə turist məkanlarında turistlərin qəbulu üçün hazırlanmış 100-dək fərdi evlər vardır. Daha bir otel Xınna dərəsində Zəyəm çayı hövzəsində tikilir. Bu sahədə fəaliyyət göstərən iş adamlarına bundan sonra da lazımı dəstək göstəriləcəkdir.

Hazırda Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti İqtisadiyyat Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə icra etdikləri layihəyə əsasən rayonumuzun turizm potensialının araşdırılması ilə məşğuldurlar.

Ötən il rayonun müxtəlif yerlərində ayrı-ayrı vaxtlarda ağacəkmə aksiyaları keçirilmişdir. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Yeni Azərbaycan Partiyasının "hərəyə bir ağac əkək" layihəsi çərçivəsində rayonda 8 min 168 ədəd müxtəlif növ meyvə ağacları əkilmişdir. İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihə çərçivəsində rayonun Düz Cırdaxan kəndi ərazisində 2 hektara yaxın ərazidə fındıq bağı salınmış və əvəzsiz olaraq 3 şəhid ailəsinə verilmişdir.

Hesabat dövründə yaşayış məntəqələrində sosial infrastrukturun möhkəmləndirilməsi və fəaliyyətinin davamlılığının təmin olunması məsələləri ilə müntəzəm məşğul olunmuşdur.

Rayonda yaşayış məntəqələrinin elektrik enerjisi ilə təminatının fasiləsizliyinə nail olmaq üçün elektrik təsərrüfatında əhəmiyyətli təmir və yenilənmə işləri aparılmışdır. Bir sıra yaşayış məntəqələrində elektrik verilişləri xətləri kabelləşdirilmiş, istismar vaxtını başa çatdırmış elektrik dayaqları dəyişdirilmişdir. Bu işlər davam etdirilir. Cari ildə elektrik paylayıcı şəbəkənin yenidən qurulması üzrə müvafiq layihəyə uyğun olaraq elektrik təsərrüfatının yenidən qurulması istiqamətində geniş həcmli işlərin görülməsi nəzərdə tutulur.

Əhalinin elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması sərf olunan elektrik enerjisinin dəyərinin ödənilməsinə də öz təsirini göstərmişdir. İlin yekununa görə elektrik enerjisinin dəyərinin ödənilməsi 99,53 faiz təşkil etmişdir. Bu yüksək nəticədir.

Əhalinin qazla təminatı sahəsində ötən il müəyyən işlər görülmüşdür. İl ərzində 50 yaşayış məntəqəsində 426 abonentə təbii qaz verilmiş, ümumilikdə təbii qaz alan abonentlərin sayı 32 min 111-ə çatmışdır. Diqqətinizə çatdırmaq istəyirəm ki, 2004-cü ildə cəmi 9 min 280 abonent qazla təmin olunurdu. Hazırda rayon üzrə qazlaşmanın səviyyəsi 85 faiz təşkil edir. Bu il də qazlaşma işləri davam etdiriləcəkdir.

Tovuz şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi artıq başa çatmışdır. Lakin sayğaclaşma işlərinin başa çatdırılmaması içməli su ilə təminatda fasilələrin yaranmasına səbəb olur. Ümumiyyətlə, əhalinin içməli su ilə təminatı sahəsində problemlərimiz var. Biz bunları dəqiq təhlil etmiş və Azərbaycan Respublikası Nazirlər Kabineti qarşısında müvafiq təkliflərlə çıxış etmişik. Hazırda 26 yaşayış məntəqəsində su təminatı ilə bağlı aidiyyatı qurumlar tərəfindən yerində araşdırmalara başlanılmışdır. Eyni zamanda təbii bulaqlardan istifadənin nizama salınması ilə əlaqədar təkliflərimiz də öyrənilir.

Son illərdə Tovuz rayonunda aparılan tikinti-quruculuq və abadlıq işləri ardıcıllıqla davam etdirilmiş, bir sıra sosial xarakterli layihələr həyata keçirilmiş, yollar salınmış, parklar və küçələr abadlaşdırılmış, şəhər və kəndlərin siması xeyli müasirləşdirilmişdir.

Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının əhatə etdiyi dövrdə Tovuz və Qovlar şəhərlərində ən müasir tələblər səviyyəsində mədəniyyət və istirahət parkları salınmış, Heydər Əliyev Mərkəzi, Olimpiya İdman Kompleksi, Qala kompleksi, Bayraq Meydanı tikilmiş, beş ulduzlu "Ayan Palace" oteli istifadəyə verilmiş, 80 çarpayılıq mərkəzi rayon xəstəxanası, Diaqnostika və Hemodializ Mərkəzi, onlarla inzibati idarə binası, çoxmərtəbəli yaşayış evləri, ticarət, xidmət və turizm obyektləri tikilib istifadəyə verilmişdir. 7312 şagird yerlik 21 məktəb binası tikilmiş, 5982 şagird yerlik 10 məktəb binası əsaslı təmir edilmişdir. Heydər Əliyev fondunun dəstəyi ilə Tovuz və Qovlar şəhərlərində hər biri 100 yerlik üç uşaq bağçası tikilərək istifadəyə verilmişdir. Bununla belə hazırda 13 məktəb binası qəzalı vəziyyətdədir, 8 məktəb uyğunlaşdırılmış binada yerləşir, 13 məktəb binasının isə əsaslı təmirə ehtiyacı vardır.

Cəmi uzunluğu 138 kilometr olan Tovuz-Böyük Qışlaq-Qaralar, Tovuz-Qovlar-Ağbaşlar, Tovuz-Hunanlar-Qaraxanlı-Düz Cırdaxan avtomobil yolları əsaslı təmir edilmiş, 52 kilometr uzunluğunda Qovlar-Əyyublu-Alakol-Ağacqala-Sarıtala-Haçaqaya avtomobil yolunun tikintisinə başlanmış və hazırda yolun tikintisi davam edir. Axınca, Zəyəm və Tovuz çayları üzərində 8 avtomobil körpüsü salınmış, çoxlu sayda su keçidləri quraşdırılmışdır. 2017-ci ildə cəmi uzunluğu 13 kilometr olan Əlibəyli-Hacallı, Tovuz-Ağdam və Yuxarı Öysüzlü-Ağdam kəndlərarası avtomobil yolları əsaslı təmir edilmişdir. Cənab Prezident çıxışında yol infrastrukturu ilə bağlı vəziyyəti də ətraflı təhlil etmiş, bu sahədə görülən böyük işlərin ümumi mənzərəsini canlandırmış və yaxın gələcəkdə ölkə üzrə bütün avtomobil yollarının təmiri ilə əlaqədar tapşırıqlar verilmişdir. Bizim rayonda da təmirə ehtiyacı olan 134 kilometr uzunluğunda yol təsərrüfatı vardır və bu yolların tam təmirinə nail olunması üçün adiyyatı üzrə iş aparılır.

Rayonda abadlıq və quruculuq işlərinin aparılması həmişə diqqət mərkəzində saxlanılır və gündəlik iş kimi qarşıda durur. 2016-2017-ci illərdə Tovuz və Qovlar şəhərlərinin, digər yaşayış məntəqələrinin abadlaşdırılması işləri davam etdirilmiş, küçələrə hasar çəkilmiş, səkilərə tamet tavalar döşənmiş, dekorativ şəbəkələr qurulmuş, rəngləmə işləri aparılmış, bort daşları düzülmüş, divarlara aqlay və qaya daşlarından dekorativ üzlüklər vurulmuşdur. Tovuz şəhərində S.Qılıcov, N.Nərimanov, A.H.Bozalqanlı, A.Ə.Rzayev, S.Məmmədov, E.Quliyev, Nəsimi, M.Ə.Rəsulzadə, Vaqif küçələrində müvafiq olaraq ümumi sahəsi 31550 kv.m, Qovlar şəhəri N.Nərimanov prospektində sahəsi 13200 kv.m olan yollara asfalt beton örtük salınmışdır.

Rayonda 7 ədəd beşmərtəbəli, 25 ədəd ikimərtəbəli yaşayış binalarında təmir işləri aparılmışdır. Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə 6 fərdi ev tikilmişdir. Ərazi Kənd Təsərrüfatı İdarəsinin və Tovuz Elektrik Şəbəkəsinin yeni inzibati binası tikilib istifadəyə verilmişdir. Xalça istehsalı müəssisəsi tikilmiş, Tovuz şəhərində Nizami mədəniyyət evinin və Aşıq Hüseyn Bozalqanlı adına Aşıq Sənəti Dövlət muzeyinin tikintisi davam etdirilmişdir.

Ağacqala, Qandallar və Lazılar kəndlərində modul tipli məktəblər tikilib istifadəyə verilmiş, Ağbulaq kənd tam orta məktəbinin tikintisi və Qovlar şəhər internat məktəbinin əsaslı təmir işləri davam etdirilir. Fransanın Konyak şəhəri ilə Tovuz şəhərinin qardaşlaşması nəticəsində Qovlar şəhərində Dostluq parkı yaradılmış, burada rəmzi abidə ucaldılmışdır. Heydər Əliyev Fondunun dəstəyi ilə Tovuz şəhərində Tarix Diyarşünaslıq Muzeyinin və Bayraq Muzeyinin tikintisi aparılır. Bu il daha 9 modul tipli məktəb binasının tikilməsi nəzərdə tutulur.

Hesabat dövründə tikinti-quraşdırma işlərinə 30 milyon 932 min 600 manat vəsait yönəldilmişdir. Bu əvvəlki ilə nisbətən faktiki qiymətlərlə 94,7 faiz artım deməkdir.

Qeyd etmək yerinə düşərdi ki, son 10 ildə cənab Prezident 6 dəfə Tovuz rayonuna səfər etmiş, 15 obyektin təməlqoyma və açılış mərasimlərində iştirak etmiş, rayonumuzda aparılan işlərlə yerində tanış olmuş və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşlərində Tovuz rayonunun uğurla inkişaf etdiyini qeyd etmişdir.

Təhsil sahəsində ötən il müəyyən işlər görülmüşdür. 2017-ci ildə orta məktəbləri bitirən 1650 nəfər məzundan 542 nəfəri ali məktəblərə, 131 nəfəri orta ixtisas məktəblərinə qəbul olunmuşlar. F. Hüseynov adına Qaraxanlı kənd tam orta məktəbin məzunu Əhmədli Kənan Fazil oğlu qəbul imtahanında 695 bal toplayaraq ən yüksək nəticə göstərmişdir. 30 nəfər 600 baldan yuxarı, 80 nəfər isə 500 baldan yuxarı müvəffəqiyyət əldə etmişdir. Keçən il müəllimlərin diaqnostik qiymətləndirilməsi keçirilmiş, rayon üzrə ümumi orta bal maksimum balın 60,9 faizini təşkil etmişdir.

Hərbi vətənpərvərlik sahəsində aparılan işlər davam etdirilmiş və hesabat ilində 25 nəfər gənc ali hərbi məktəblərə, 7 nəfər isə hərbi liseylərə qəbul olunmuşdur. Beləliklə, son 10 ildə ali hərbi məktəblərə və hərbi liseylərə qəbul olunan tovuzlu gənclərin sayı 563 nəfərə çatmışdır. Biz bununla fəxr edirik və bu sahədə daha yüksək nəticələr əldə etmək əzmindəyik.

Yuxarda adlarını qeyd etdiyim yeni inşa olunmuş məktəbəqədər təhsil müəssisələri tam gücü ilə fəaliyyətə başlamışdır. Məktəbəqədər təhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsinə yenə də ehtiyac vardır. Əhalisinin sayı 1000 nəfərdən çox olan 15 inzibati ərazi dairəsində uşaq tərbiyyə müəssisəsi yoxdur.

Əhaliyə göstərilən tibbi xidmət daim diqqət mərkəzində saxlanılır. Səhiyyə müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılması istiqamətində müəyyən işlər görülmüş, tibbi xidmətin səviyyəsi yaxşılığa doğru dəyişməkdədir. Sakinlərimizin rayon səhiyyəsinə inamları artmaqdadır. Təkcə onu qeyd etmək kifayətdir ki, il ərzində 1916 cərrahi əməliyyat aparılmışdır. Keçən il cənab Prezidentin tapşırıqlarının icrası olaraq 15 fevral-15 may tarixində rayon əhalisinin profilaktik tibii müayinəsi həyata keçirilmişdir və bu vacib tədbir bu il də həyata keçiriləcəkdir.

Mədəniyyət obyektlərinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində aparılan işlərə bir qədər əvvəl toxunduq. Rayonumuzda mədəniyyət müəssisələrinin zəngin bazası yaradılır. Qarşıda duran əsas vəzifə bu dövlət qayğısına cavab olaraq mədəniyyətimizi lazımı səviyyədə təqdim etməyə hazır olmaqdan ibarətdir.

Keçən il ərzində bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi sahəsində həyata keçirilən tədbirlər davam etdirilmişdir. İdmanın əksər sahələri üzrə müxtəlif yarışlar keçirilmiş, mövcud idman qurğularının potensialından səmərəli istifadə olunmuşdur. İdmançılarımız respublika birinciliyində və çempionatlarda iştirak etmişlər.

Olimpiya İdman Kompleksinin və Gənclər evinin imkanlarından maksimum istifadə olunması, gənclərin asudə vaxtının səmərəli təşkili sahəsində məqsədyönlü işlər görülür.

(Davamı 5-ci səhifədə)

# 2017-ci ilin yekunları rayonumuz üçün uğurlu olmuşdur

(Əvvəli 4-cü səhifədə)

Tovuz Olimpiya İdman Kompleksi "İlin ən yaxşı idman qurğusu" seçilmişdir.

Rayonda gənclərin ordu sıralarına hazırlanması və göndərilməsi yüksək mütəşəkkilliklə və təntənəli tədbirlərlə müşayət olunur.

Ötən il rayonumuzda gənclərin həqiqi hərbi xidmətə göndərilməsi sahəsində proqnoz tapşırıqlar yerinə yetirilmişdir.

Hesabat ilində rayonun mülki müdafiəsi, yanğın təhlükəsizliyi, təbii fəlakətlər və fövqəladə hadisələr zamanı əhalinin təhlükəsizliliyinin təmin olunması diqqət mərkəzində saxlanılmış, müvafiq planlar hazırlanmış, lazımi maarifləndirmə işləri aparılmışdır. Bu il 24-28 iyul tarixlərində rayonda kompleks mülkü müdafiə təlimi keçirilmiş və təlim uğurla başa çatmışdır.

Ötən il Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə yardım fonduna 40 min 823 manat vəsait köçürülmüşdür.

Rayonda ictima-siyasi sabitlik hökm sürür. Hüquq-mühafizə orqanlarının birgə fəaliyyəti nəticəsində əməliyyat şəraiti sabit saxlanılmışdır.

2017-ci ildə ideoloji işin təşkili istiqamətində müntəzəm iş aparılmış, Heydər Əliyev mərkəzində keçirilən tədbirlərin sistemliliyi təmin olunmuş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasətin əhali arasında fəal təbliği təşkil edilmişdir. "Ölkəmizi tanıyaq" şüarı altında tur-aksiyalar davam etdirilmiş, mart və noyabr aylarında Qəbələ, Şəki və Zaqatala rayonlarına iki tur aksiya təşkil olunmuşdur.

Ötən il ərzində rayonda fəaliyyət göstərən siyasi partiyaların yerli təşkilatları, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri və dini qurumlarla qarşılıqlı fəaliyyətin təşkili sahəsində müvafiq iş aparılmış, ərazideki ictimai-siyasi vəziyyət barədə məlumatlar toplanılaraq təhlil edilmiş və fəaliyyətimizdə nəzərə alınmışdır.

2017-ci ilin "İslam həmrəyliyi" ili elan edilməsi ilə bağlı təsdiq olunmuş tədbirlər planı ardıcıllıqla yerinə yetirilmişdir. Yeri gəlmişkən qeyd edim ki, 2018-ci il də ictimai-siyasi hadisələrlə zəngin bir ildir. Bu ili möhtərəm Prezidentimiz "Azərbaycan Xalq Cümhuriyyəti" ili elan etmişdir. Prezidentimizin bununla bağlı Sərəncamı böyük tarixi hadisədir. Eyni zamanda bu il Ümummilli Liderimiz Heydər Əliyevin 95-ci ildönümüdür. Rayon İcra Hakimiyyəti olaraq biz bu tədbirlərlə bağlı üzərimizə düşən vəzifələri şərəflə yerinə yetirəcəyik.

Ötən il rayonumuzun sosial-iqtisadi inkişafı sahəsində görülən işlər barədə respublika mətbuatında və yerli "Tovuz" qəzetində müntəzəm yazılar dərc edilmiş, mərkəzi və yerli televiziya kanallarında kifayət qədər işıqlandırılmışdır.

2017-ci ildə bələdiyyə qurumları tərəfindən "Yerli demokratiya həftəsi" çərçivəsində müxtəlif tədbirlər, əhali ilə görüşlər keçirilmiş, problemlərin öyrənilməsi və həlli ilə bağlı işlər görülmüşdür. "Bir bələdiyyə-azı bir layihə" çərçivəsində 72 min 800 manat dəyərində 63 xırda layihə icra olunmuşdur. Bələdiyyələrdə avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqi davam etdirilir.

2018-ci ilin yanvar ayında ərazi nümayəndəliklərinin 2017-ci ilin yekunlarına dair hesabatları keçirilmişdir. Hesabat yığıncaqlarında 2096 nəfər iştirak etmiş, 206 nəfər tənqidi qeyd və təkliflərlə çıxış etmiş, ərazilərin sosial-iqtisadi inkişafı ilə əlaqədar 214 təklif və tənqidi qeyd səslənmişdir. Hesabat yığıncaqlarında səslənən tənqidi qeydlər və təkliflər, qaldırılan problemlər ümumiləşdirilərək təhlil edilir, aidiyyəti təşkilatlara göndərilir və il ərzində icrasına nəzarət olunur. Bir sıra təkliflərlə əlaqədar mərkəzi icra hakimiyyəti orqanları qarşısında məsələlər qaldırılır.

2017-ci ildə RİH başçısı yanında Şuranın 26 iclası keçirilmiş və 31 məsələ müzakirə edilmiş, rayonda qeyri-neft sektorunun inkişafı, sosial-iqtisadi, mədəni və digər yerli məsələlərə dair təkliflər verilmişdir. Bu il də rayonda sosial-iqtisadi inkişafa, ictimai-siyasi vəziyyətə dair aktual məsələlər rayon icra hakimiyyətinin perspektiv iş planına daxil edilmiş və vaxtaşırı olaraq RİH başçısı yanında Şura iclaslarında geniş müzakirə olunması nəzərdə tutulur.

Keçən il ərzində RİH başçısı aparatına 879 vətəndaş müraciəti daxil olmuşdur. Bütün müraciətlər vahid elektron informasiya sisteminə daxil edilmiş, hər bir müraciətə həssaslıqla yanaşılmış, qanunvericiliyə uyğun qaydada baxılmış və cavab verilmişdir. Daxil olan müraciətlər əsasən kənd təsərrüfatı, torpaq, kredit, mənzil, iş, birdəfəlik maddi yardım, enerji daşıyıcılarının dəyərinin ödənilməsinə güzəşt edilməsi, su təchizatı, təbii fəlakət hadisələri və sair sahələrlə bağlı məsələlərdir. Ona nail olmağa çalışmışıq ki, vətəndaş məmnunluğu təmin edilsin. Hesabat dövründə RİH başçısı tərəfindən 1996 nəfər vətəndaş qəbul edilmişdir.

Ötən il ərzində yaşayış məntəqərində 41 səyyar qəbul-görüş keçirilmiş və bu görüşlərdə yerli sakinlər tərəfindən 381 təklif səslənmişdir. Qaldırılmış məsələlərin böyük əksəriyyəti öz həllini tapmış, müəyyən hissəsi hazırda icra olunmaqdadır, bir sıra təklif və tənqidi qeydlərlə əlaqədar aidiyyatı üzrə məsələ qaldırılmış və vətəndaşlara hüquqi izahatlar verilmişdir.

Yerlərdə qaldırılan məsələlərin əksəriyyəti ərazilərin sosial-iqtisadi inkişafı ilə bağlıdır, onların həlli ilə əlaqədar təkliflərimizi hökumətə təqdim etmişik və baxılmaq mərhələsindədir.

2017-ci ildə sosial-iqtisadi inkişaf sahəsində ölkəmizdə böyük uğurlar qazanılmışdır. Bu uğurlar onu göstərir ki, 2018-ci il də ölkə iqtisadiyyatı üçün uğurlu il olacaqdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın mövcud iqtisadi potensialından xalqımızın maraqlarına uyğun istifadə edilir və bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

Mən bu gün hesabat yığıncağında qazandığımız uğurlar, əldə etdiyimiz nəticələr və qarşıda bizi gözləyən vəzifələr barədə ətraflı söz açdım. Məruzə boyu işimizdə olan nöqsanlara da toxundum. Rayonda mövcud olan hər bir problemin həlli üzrə konkret tədbirlərimiz var. Konfransda cənab Prezidentin qarşıya qoyduğu vəzifələrlə bağlı tədbirlər planı hazırlanıb Şura yığıncağına təqdim edilmişdir. Ü z ə r i m i z ə düşən məsuliyyəti dərindən dərk edərək bu vəzifələrin layiqincə yerinə yetirilməsi üçün Sizlərlə birlikdə bütün qüvvə və bacarığımızı sərf edəcəyik.

"Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"ni rəhbər tutaraq öz fəaliyyətimizi bundan sonra daha da gücləndirəcək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bütün göstərişlərini və tapşırıqlarını ləyaqətlə yerinə yetirəcəyik.

Qədirbilən tovuzlular birmənalı şəkildə ölkə başçısının daxili və xarici siyasət xəttini ürəkdən bəyənir və dəstəkləyirlər. Biz cənab Prezidentin müəyyən etdiyi inkişaf hədəflərinə nail olunması üçün səylərimizi daha da artıracaq, əməli fəaliyyətimizlə Heydər Əliyev ideallarına və Prezidentimizə həmişə sadiq olduğumuzu nümayiş etdirəcəyik.

* * *

Məruzə ətrafında çıxışlar olmuşdur.

**Rayon Statistika İdarəsinin rəisi Niyazi Tağıyevin çıxışı**



Hörmətli Tofiq müəllim,
Hörmətli qonaqlar,
Hörmətli toplantı iştirakçıları!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin yekunlarına və Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda qarşıda duran vəzifələr, hörmətli başçının məruzəsində hərtərəfli təhlil edildi.

Statistik təhlillər göstərir ki, son illərdə qeyri neft sektorunun, xüsusəndə sənayenin və aqrar sahənin inkişafı ilə bağlı dövlət proqramlarının qəbulu bütün regionlarda olduğu kimi, Tovuz Rayonunda da öz müsbət nəticələrini verməkdədir.

2017-ci ilin yanvar-dekabr aylarında rayon iqtisadiyyatının əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 6.0 faiz artaraq 388.133.0 manat olmuş və onun ümumi həcminin 61.4 faizi istehsal, 38.6 faizi işə xidmət sahələrinin payına düşmüşdür.

2017-ci ildə sənayedə 11.127.800 manatlıq, kənd təsərrüfatında 196.368.200 manatlıq, tikintidə 30.932.600 manatlıq, nəqliyyat və rabitədə 8.871.300 manatlıq, ticarət və xidmət sahələrində 140.833.100 manatlıq məhsul və xidmətlər istehsal olunmuşdur. Eyni zamanda 2017-ci ildə 2016-cı ilə nisbətən faktiki qiymətlərlə sənaye məhsulu 36.4 faiz , kənd təsərrüfatı məhsulu 13.7 faiz , nəqliyyat sektorunda yük daşınması 2.9 faiz , rabitə xidmətlərinin cəmi 9.5 faiz, pərakəndə ticarət dövriyyəsi 14.1 faiz,əhaliyə xidmətlər 13.5 faiz artmışdır.

Sahibkarlığın inkişafına verilən dəstək və iş adamları üçün yaradılan əlverişli mühit rayona investisiya cəlb olunmasına yeni imkanlar yaradıb, belə ki ötən dövr ərzində rayona 32.405.200 manat investisiya qoyulmuş, bu ötən ildəkindən 82.4 faiz çoxdur.

Rayonda həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 2017-ci ildə kənd təsərrüfatı bitkilərinin becərilməsinə diqqət artırılmışdır.

Ötən ildə əkin sahələrindən 65.204 ton taxıl , 5861 ton qarğıdalı , 169.705 ton kartof, 30.800 ton tərəvəz tərəvəz , 1421 ton bostan, 494 ton günəbaxan , 4000 ton şəkər çuğunduru , 50.1 ton tütün məhsulu istehsal olunmuşdur.

Eyni zamanda istixanalardan 4396 ton məhsul istehsal olunmuşdur.

Ümumilikdə kənd təsərrüfatında 196.368.200 manatlıq məhsul istehsal edilmişdir. Bu da keçən ildəkindən 23.669.700 manat çoxdur.

Heyvandarlığın inkişaf etdirilməsi və məhsul istehsalının artırılması istiqamətində tədbirlər davam etdirilir. 2018-ci il yanvar ayının birinə 43860 baş iri buynuzlu mal-qara , 199939 baş qoyun və keçi, 473971 baş quşlar , 5768 arı ailəsi mövcud olmuşdur.

2017-ci ildə keçən ildəkindən 1.5 faiz ət, 0.2 faiz süd, 2.5 faiz yumurta, 0.6 faiz yun artıq istehsal olunmuşdur.

Hazırda rayonumuzda idxalı əvəz edən və ölkəyə valyuta gətirən ixracyönümlü yerli istehsalın və emal müəssisələrinin yaradılması əsas prioritet istiqamətlərdəndir.

Cənab başçı, sizin tapşırığınıza əsasən 2017-ci ildə Tovuz rayonunun əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi tərəfimizdən öyrənilmiş və aşağıdakı nəticələr əldə edilmişdir.

Minimum istehlak səbəti üzrə əsas növ ərzaq məhsullarının illik istehlak normalarına uyğun olaraq, çörək və çörək məhsullarına adambaşına orta istehlak norması 126.2 kq olduğu halda 215.6 kq istehsal olunmuş və normadan70.8% artıqdır.

Kartof - istehsalında adambaşına illik istehlak norması 50.7 kq olduğu halda , 974 kq istehsal olunub, bu da istehlak normasından 19.2 dəfə çoxdur. Kartof istehsalının tələbatdan artıq hissəsinin xarici bazarlara ixracı az olsada, əsasən daxili bazarda satılır. 2017-ci ildə rayonda 50 milyon manatlıq kartof istehsal olunmuşdur.

Tərəvəz və bostan məhsulları adambaşına orta istehlak norması 97 kq olduğu halda 190 kq istehsal olunmuş və 1.9 dəfə normadan artıqdır. Ötən il 15 milyon manatdan çox tərəvəz və bostan məhsulları istehsal olunmuşdur. 8 milyon manatdan çox tərəvəz xarici bazarlara ixrac olunmuşdur.

Meyvə və giləmeyvə adambaşına orta istehlak norması 46 kq olduğu halda, 91.9 kq məhsul istehsal olunmuş və normadan 2 dəfə artıqdır. Keçən il 19 milyon manatlıq meyvə və giləmeyvə istehsal olunmuşdur. Xurmadan başqa digər meyvələrin xarici bazara ixracı az olmuşdur. 600 min manatlıq meyvə xarici bazara ixrac olunmuşdur.

Ət və ət məhsulları adambaşına orta istehlak norması 31.5 kq olduğu halda, 46.9 kq məhsul istehsal olunmuş və normadan 1.5 dəfə çoxdur. Ötən il 55 milyon manatlıq ət istehsal olunmuşdur. İstehsal olunmuş ətin tələbatdan artıq hissəsi daxili bazarlarda satılmışdır.

Ət istehsalında kəsilmiş təmiz ət şəklin də tələbat ödənilsədə, istehlak üçün lazım olan sənaye üsulunda hazırlanmış ət məhsulları rayona kənardan gətirilir.

Ət istehsalı ümumi normanı ödəsə də quş əti istehlak normasının 80 faizini ödəyir.

Süd və süd məhsulları adambaşına norma 232.3 litr olduğu halda 191.6 litr süd istehsal olunmuş, normadan 17.5% azdır.Ötən il 15 milyon manatlıq süd və süd məhsulları istehsal olunmuşdur.

Eyni zamanda süddən hazırlanmış yerli məhsullar istehlakı qismən ödəsədə, emal üsulu ilə hazırlanan süd məhsulları rayona kənardan gətirilir.

Yumurta adambaşına norma 153 ədəd olduğu halda ,112.6 ədəd istehsal olunmuş, normadan 16.4 faiz azdır.

Şəkər və qənnadı məmulatları adambaşına orta istehlak norması 17.4 kq, bitki yağları, marqarin və digər piylərin adambaşına istehlak norması 0.8 kq olduğu halda tələb olunan istehlak rayona kənardan gətirilit.

Kərə yağı adambaşına orta istehlak norması 6.7 kq olduğu halda 0.29 kq istehsal olunmuş , kərə yağının istehlak tələbatı 4.3 faiz ödənilir.

Arıçılıq perspektivli sahədir. Rayonumuzda arıçılığın inkişafı üçün çox gözəl təbii şərait var.

(Davamı 6-cı səhifədə)

# 2017-ci ilin yekunları rayonumuz üçün uğurlu olmuşdur

(Əvvəli 5-ci səhifədə)

2017-ci ildə əsas qida və ixrac məhsulu sayılan 55.4 ton təbii bal istehsal olunmuşdur. Bal məhsulunun adambaşına illik istehlak norması14.6 kq olduğu halda, 0.32 kq bal istehsal olunmuşdur. Meyvə və tərəvəz məhsulları əsasən rayonun istehlak tələbatını ödəməsinə baxmayaraq , eyni zamanda yeni meyvə bağları və istixanalar istifadəyə verilir. Belə ki, 2017-ci ildə 127 hektar meyvə bağı və 4 hektardan çox istixana salınmışdır. Bu da gələcəkdə ixrac üçün çox önəmli sahə olacaq. Ümumilikdə rayonda 2017-ci ildə kənd təsərrüfatında 196.368.200 manatlıq məhsul istehsal olunmuş, bundan cəmi 13.012.000 manat dəyərində meyvə və tərəvəz xarici bazarlara çıxarılmışdır.

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramında nəzərdə tutulmuş ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəticəsində 2017-ci ildə rayon üzrə 1639 yeni iş yerləri açılmış, onun 1039-u daimidir.

2017-ci ildə əmək təşkilatının metodologiyası əsasında hesablanmış rayon üzrə əhalinin iqtisadi fəallığının səviyyəsi 67.5 faiz olmuş, əhalinin məşğulluq səviyyəsi 95.1 faiz, işsizlik səviyyəsi 4.9 faiz olmuşdur.

Rayon üzrə işləyən və işsiz əhalini əhatə edən iqtisadi fəal əhali 90200 nəfər olmuşdur.

2018-ci il yanvar ayının 1 -i vəziyyətinə əhalinin sayı ilin əvvəli ilə müayisədə 1706 nəfər və yaxud 1 % artaraq 174.100 nəfər olmuşdur.

Son olaraq demək istəyirəm ki, rayonda yaradılmış əlverişli mühit, yeni iqtisadi şəraitə uyğun nəzərdə tutulan tədbirlər, 2018-ci ilin də uğurla yekunlaşacağına əminlik yaradır.

Mən hörmətli başçımızın hesabat dövründəki fəaliyyətini qənaətbəxş qiymətləndirilməsini təklif edirəm.

**Diqqətinizə görə, təşəkkur edirəm.**

**"Azərixalça" ASC-nin Tovuz filialının direktoru Sarıtel Xəlilovanın ÇIXIŞI**



Hörmətli Tofiq müəllim!

Hörmətli Tovuz rayon ictimaiyyətinin nümayəndələri!

Mən burada "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Tovuz rayon filialını təmsil edirəm. "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti 2016-cı ildə yaradılıb. Hal-hazırda Cəmiyyətin Füzuli, Şəmkir, Ağdam, İsmayıllı, Qəbələ, Quba, Xaçmaz, Qazax, Ağstafa və Tovuz rayonlarında 10 filialı fəaliyyət göstərir.

Tovuz rayon filialı 2017-ci ilin sonlarında istifadəyə verilib. Filial binası toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça satış salonu və digər bölmələrdən ibarətdir. Burada 150 nəfər toxucunun, 13 nəfər inzibati-təsərrüfat işçisinin çalışması üçün şərait vardır. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunur; əsasən tarixən Qazax, Tovuz, Ağstafa ərazisində toxunmuş xalça çeşnilərinə üstünlük verilir. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla - müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib. Toxucular bir neçə ay ərzində "Azərxalça"nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarında mütəmadi şəkildə iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Hal-hazırda da fəaliyyətini davam etdirən tədris-hazırlıq kurslarının məzunlarına "Azərxalça" ASC-nin sertifikatı verilir.

İndi Tovuz filialında rayonun müxtəlif kəndlərindən olan 66 nəfər toxucu çalışır. İnzibati işçilərin sayı 13 nəfərdir. Müəssisəmizdə tibb bacısı, mühafizə, bağban, elektrik, çilingər, xadimə də fəliyyət göstərir. Binamız daimi elektrik enerjisi, istilik və su ilə təchiz olunub. Burada işləmək üçün gözəl şərait yaradılıb. Qısa müddət ərzində mehriban və əməksevər kollektiv yaratmışıq. Fəaliyyətimiz "Azərxalça"nın rəhbərliyinin diqqət mərkəzindədir. Bu günədək gördüyümüz işlər, toxuduğumuz xalçalar rəhbərlik tərəfindən yüksək qiymətləndirilib. İstəyərdik ki, arzusu, həvəsi olan tovuzlu xalçaçılar Filialımızda işləsinlər. Bu sənəti davam etdirək, dövlətimizin inamını doğruldaq.

**Diqqətinizə görə, təşəkkür edirik.**

**RİH başçısıçnın Cəlilli kənd İƏD üzrə nümayəndəsi Əli İsmayılovun Ç I X IŞ I**

Hörmətli Tofiq müəllim!

Hörmətli qonaqlar!

Hörmətli yığıncaq iştirakçıları!

Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf startegiyasının mühüm tərkib hissəsidir. Ölkə başçısının rəhbərliyi ilə iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun, xüsusilə aqrar sahənin inkişafı ilə bağlı qəbul edilmiş Dövlət Proqramlarında nəzərdə tutulmuş vəzifələrin icrası bütün regionlarda olduğu kimi Tovuz rayonunda da, o cümlədən Cəlilli kəndində də öz müsbət nəticələrini göstərməkdədir.

2017-ci ildə Cəlilli kəndində



qeyri-neft sektorunun əsas sahələrindən biri olan kənd təsərrüfatının ənənəvi sahələrinin inkişafı, əhalinin məşğullunun artırılması istiqamətində xeyli işlər görülmüşdür. Qeyd edim ki, sakinlərimizin istifadəsində 73 ha həyətyanı torpaq sahəsi, 175 ha pay torpağı, 29 ha bələdiyyə torpaqlarından və heyvandarlığın inkişafı üçün nəzərdə tutulmuş dövlət fond topaqlarından icarəyə götürülmüş 65 ha torpaq sahələri vardır. Əhalimizin əsas məşğulluğunu heyvandarlıq, əkinçilik və aqrar sektorun ənənəvi sahələri təşkil edir. Ötən il 140 hektar taxıl, 10 hektar arpa, 30 hektar kartof, 30 hektar qarğıdalı və 25 hektar müxtəlif tərəvəz bitkiləri əkilmişdir. Rəqəmlərdən göründüyü kimi əkinə yaralı istifadə edilməyən torpaq sahəsi qalmamışdır. Artıq əhalimiz təkrar əkinə maraq göstərir.

Hörmətli cənab Başçı! Sizin kənd təsərrüfatının çox mahir bilicisi kimi verdiyiniz tövsiyyələriniz, operativ tapşırıqlarınız, tələbkarlığınız, həmçinin torpaq mülkiyyətçilərinə göstərdiyiniz diqqət və qayğı bu işlərdə real nəticələrə nail olmağımıza sanballı stimul verir. O cümlədən kənd təsərrüfatının ənənəvi sahələrinin dirçəldiləməsi sahəsində apardığınız işlər müsbət nəticələrini verməkdədir.

Qısa zaman ərzində Cəlilli kəndində baramaçılığın bərpa olunması istiqamətində xeyli işlər görülmüşdür. Kümçü Novruzəli Fərzəliyev tərəfindən 2 qutu barama qurdu yetişdirilmiş və 100 kq barama əldə edilərək təhvil verilmişdir. Bunun müqabilində ailəin büdcəsinə xeyli vəsait daxil olmuşdur. Deməliyəm ki, yaxşı məhsul əldə etmək üçün ən vacib məsələ yem bazasının olmasıdır. Baramaçılığın gələcəkdə daha sürətlə inkişaf etməsi üçün hazırda ərazidə mövcud olan tut ağaclarında budama işləri aparılmışdır. Bununla yanaşı 100 ədəd yerli tut tingi əkilmişdir. İnanıram ki, bu istiqamətdə görülən işlər gələcəkdə kümçülərimizin sayının artmasına zəmin yaradacaqdır.

Uzun illər fasilədən sonra keçən il Cəlilli kəndində sahibkar İsmayılov Sehvəddin Qəməd oğlu tərəfindən 1,2 hektarda tütün əkilməsi planlaşdırılaraq hazırlıq işlərinə başlanıldı. Tütün şitili yetişdirmək üçün xüsusi istixana hazırlandı və həmin istixanada əla növ tütün şitili yetişdirərək ayrılmış sahələrə köçürüldü. Tütün becərilməsi işlərində dörd ailənin əmək qüvvəsindən istifadə edən S.İsmayılov yüksək nəticə əldə edərək 2458 kq I növ quru tütünü Azərtütün istehsalat birliyinə təhvil verdi. Qeyd edim ki, tütün becərən ailələrin büdcəsinə hər birinə 900 manat olamaqla ümumilikdə 3600 manat vəsait daxil olmuşdur.

Bununla yanaşı kəndimizdə sahibkarlar Bayramov Nazim İvan oğlu 5 ha, Qasımov Alim Nəsir oğlu 1 ha, Məmmədov Elçin Musa oğlu 1 ha olmaqla ümumilikdə 7 hektarda şəkər çuğunduru əkilmişlər. Bütün aqrotexnki qaydalara əməl olunaraq məhsul yüksək səviyyədə becərildi və 164 ton şəkər çuğunduru yığılaraq İmişli şəkər zavoduna təhvil verildi. Şəkər çuğundurü becərilməsində 10-a yaxın ailənin əmək qüvvəsindən istifdə edilmişdir. Çəkilən zəhmətin müqabilində ümumilikdə 4200 manat olmaqla hər bir ailənin büdcəsinə 420 manatadək vəsait daxil olmuşdur.

Ötən il kənd təsərrüfatının taxılçılıq, kartofçuluq və digər sahələrində də yüksək məhsuldarlıq əldə edilmişdir.

Cəlilli kəndinin üzümçülük sahəsində yaxşı ənənələri vardır. Bu sahənin bərpası istiqamətində işlər görülməyə başlanmış, sahibkar İbrahimov Hidayət Qəfər oğlu tərəfindən 2 hektar sahədə üzüm bağı salınması planlaşdırılmışdır.

Heyvandarlıq, quşçuluq və arıçılıq sahəsində irəliləyişlər nəzərə çarpandır. İlin sonuna iri buynyzlu mal-qaranın sayı artaraq 385 baş, qoyun- keçilərin sayı 1449 baş, ev quşlarının sayı 3880 ədəd olmuşdur. Arıçılığın gəlirli sahə olduğunu nəzərə alaraq kənddə olan 85 arı ailəsinin sayının artırlmasını istiqamətində işlər görülür.

Mənə verilmiş fürsətdən istifadə edərək 80 aiənin yaşadığı yeni yaşayış massivinin qazladırılması işlərində bizə köməklik göstərməyinizi Sizdən xahiş edirik.

Hörmətli cənab başçı! Cəlilli kənd sakinləri adından Sizi əmin edirəm ki, bundan sonra da bütün tapşırıqlarınızın icrası istiqamətində var gücümüzlə çalışaraq qarşıya qoyulmuş tapşırqların öhdəsindən layiqincə gələcəyik.

Mən Tovuz rayonunda 2017-ci ildə görülmüş işləri qənaətbəxşhesab edirəm.

**Diqqəttinizə görə, sağ olun!**

**Sahibkar Əhməd Muradovun Çıxışı**

Hörmətli Tofiq müəllim!

Hörmətli yığıncaq iştirakçıları!

Bildiyiniz kimi, yanvar ayının 29-da Heydər Əliyev mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə Sosial İqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının 4-cü ilinin yekunlarına həsr olunmuş konfrans keçirildi. Konfransda cənab Prezidentimizin görülən işlər və qarşıda duran vəzifələr barədə geniş məzmunlu çıxışı onu deməyə əsas verdi ki, bu proqramın yerinə yetirilməsi qeyri neft-



sektorunun inkişafına böyük təkan verir və gələcəkdə neftdən asılılığın minimuma endirilməsi əsas hədəflərdən biridir. Eyni zamanda, hər bir ölkə vətəndaşının bu proqramda iştirakının təmin olunması qarşıya məqsəd kimi qoyulmuşdur.

Rayonumuzda bu proqramın icrası ilə bağlı ciddi işlər görülür və deyərdim ki, görülən işlər böyük uğurların başlanğıcıdır. Bu məsələlər cənab başçının məruzəsində və məndən əvvəl çıxış edən yoldaşların çıxışlarında geniş şərh olundu.

Mən də kənd təsərrüfatının yüksək gəlir gətirən sahəsi olan istixanaların fəaliyyətindən danışmaq istəyirəm. Rayonumuzda bu günə qədər 44 hektardan çox sahələrdə istixanalar yaradılmışdır. Bunun 4 hektarını bizim kəndin ərazisində quraşdırmışıq və bir neçə ildir ki, fəaliyyət göstərir. Burada 60-70 nəfər işçi çalışır və bu sahəyə çox maraqla yanaşırıq. Mövsümi ildə biz hər hektardan 100 tondan çox məhsul əldə edirik. Bu sahə sahibkarlara daha çox gəlir gətirir və ona görə də rayonumuzda istixanaların yaradılması sürətlə inkişaf edir.

Hazırda biz yetişdirdiyimiz tərəvəzlə həm özümüzü tam təmin edirik, həm də böyük ixrac imkanımız vardır.

Möhtərəm Prezidentimiz öz çıxışında ötən ildə pomidor ixracından ölkəmizə 151 milyon dollar valyuta gəlir gətirdiyini qeyd etmişdir ki, bu gəlirdə də tovuzluların da öz əməyi vardır.

Biz sahibkarlar Dövlət qurumları ilə əlaqəli işlərimizi elə qurmalıyıq ki, ənənəvi bazarlarımız olsun, satış üçün heç bir problemimiz yaranmasın. Mən rayonumuzda son bir ildə görülən işləri yüksək qiymətləndirirəm və inanıram ki, 2018-ci ildə uğurlarımız daha çox olacaqdır.

**Diqqətinizə görə, çox sağ olun!**

***

Yığıncaqda Milli Məclisin deputatları Rafiq Məmmədhəsənov, Qənirə Paşayeva iştirak və çıxış etmişlər.

Onlar öz çıxışlarında 2017-ci ildə Tovuzda görülən işləri yüksək qiymətləndirmiş, qarşıda duran vəzifələr barədə təkliflər səsləndirmişlər.

Yığıncağın sonunda ölkə başçısı cənab İlham Əliyevə müraciət yekdilliklə qəbul edilmişdir.

***"Tovuz"***

## Məmməd Novruzoğlunun 75 illiyi

# Ölkəsini tanıdan və sevdirən insan

Xoşbəxt o şəxsdir ki, onun haqqında çəkinmədən, ürək dolusu açıqca fikrini bildirirsən. Əvvəlcə onu deyim ki, Məmməd müəllim həssas qəlbə, incə zövqə, kövrək duyğulara malik, təvazökar, səmimi, özünə məxsus elmi, siyasi təfəkkürə malik və geniş dünyagörüşlü bir insandır.

Məmməd müəllim haqqında danışmağa, xoş sözlər söyləməyə mənim daha çox haqqım var, çünki onu uşaqlıqdan tanıyıram. Bu yerdə şair Hüseyn Arifin bir sözü yada düşür:

Qayıt uşaqlığım, qayıt bir anlıq,
Mən səni yenidən görmək istərəm.
Həyat şirin imiş mən bu dünyaya
Yenidən doğulub gəlmək istərəm.

Deyirlər ki, hər bir insanı yaxından tanımaq istəyirsənsə, birinci növbədə onun keçmişinə bələd olmalısan. Böyük şairimiz S.Vurğun əbəs yerə deməyib ki,

Köksüz bir ağacın meyvəsi varmı,
İnsan da əslini heç unudarmı?

Məni bu haqda düşündürməyə vadar edən həm də onun Məmməd Novruzoğlu imzasını qəbul etməsidir.

Həmin imza ilə dünya şöhrətli professor, elmlər doktoru İhsan Doğramacı haqqında yazdığı kitabın birini də mənə bağışlayıb. Əziz qardaşım Məmməd Novruzoğlu həmin imzayla mənə yeni həyat vermiş oldu.

Ürəyimə od verdin,
Xəyallarıma qanad.
Sevdiyim Novruzoğlu imzası oldu.

Onu həmişə yada salanda demişəm ki, ey həyat, səndən mətanət, tükənməyən qüvvət, bir qardaşa bükülməyən qanad, azalmayan inad, son nəfəsədək ürəyi odlu, xəyallarımızın qanadlı olmasını arzu edirəm.

Ey sönməyən həyat, əmim mənim üçün əvəz edilməyən insan olub. Əbəs deyil ki, böyük alim M.Müseyibov "Yol ayrıcında iz" kitabında dayısı Novruz haqqında yazmış olduğu xatirənin adı belə olub. Heç bir vəzifə dayımın şəxsiyyətindən ucada dayana bilməz. Dünya şöhrətli akademik Qarayev isə əmimi "Müdriklik Akademiyasının müəllimi" adlandırmışdır. Odur ki, Məmməd Novruzoğlunun keçmişini yada salmaq pis olmazdı.

M.Müseyibovun yazdığına görə, Qaraxanlı kəndi bir neçə tayfadan ibarət olmuşdur. Onlardan biri də "Yolçular" adlandırılıb. Hər nəsil el-oba arasında özünəməxsus xüsusiyyətlərilə yadda qalıb. "Yolçular" nəsli deyilənlərə görə, düz danışan, etibarlı, vəfalı, dostluğa sədaqətli, qeyrətli olub.Babamız Molla Vəli dövrünü savadlı insanlarından olub. Loğman, bilici kimi tanınıb. Amma mollalıq etməyib. Eyni zamanda nəsildə sonralar iki molla, bir Sosialist Əməyi Qəhrəmanı olmuşdur.

Məmməd Novruzoğlu Əliyev 18 il Azərbaycanın Türkiyə və İspaniya səfiri olmuşdur.

Bu ocağın közündən od alan, onu sönməyə qoymayan Novruz Əliyev olub. O, Yolçular nəslinin, Kalvayı Alı yurdunun şənləşməsində, abadlaşmasında böyük rol oynadı. Bu nəslin əzizi, elin-obanın dayağı oldu.

Məlumdur ki, Vətən eşqi də eldən-obadan başlayır. Bu yerdə Balzakın bir sözünü demək yerinə düşərdi: "Öz vətənini sevməyən insan, heç kəsi və heç nəyi sevə bilməz." Ona görə də mən "Vətən Eşqi ilə Yaşayanlar" haqqında yazdığım kitabla fəxr edirəm. Molla Vəlinin iki oğlu, iki qızı olub. Bu iki qardaş (Novruz, Heydər) bir-birinə çox sadiq olublar. Əvvəllər bir yerdə yaşamışlar, sonra işlə bağlı əmim rayona köçmüşdür. Yerimiz ayrı olsa da sanki bir ailə kimi yaşayırdıq. Əmim məni oğulları qədər, bəlkə də onlardan daha çox istəyirdi. Bu isə iki qardaşın istəyindən doğurdu. Hər iki qardaş atalarını çox tez itiriblər. Buna baxmayaraq, iki qardaş istəyi onları öz arzularına çatdırdı. Orta məktəbdə oxuyan zaman bir çox hallarda əmimgildə qalırdım. İki qardaş arasındakı istək biz əmioğluların qanına keçmişdi. Əmim öz böyük qızının toyunu qardaşının həyətində, həmçinin qardaşı oğlunun kiçik toyunu (Alı müəllimin) və bacısı oğlu Müseyib müəllimin böyük toyunu rayonda öz həyətində etmişdir. Heyif ki, əmim çox cavan vaxtı xəstəliyə tutuldu. Mən I kursda oxuyurdum. Xəstəxanada yatanda hər gün dərsdən sonra onun yanında olurdum. Onda Məmməd 9-cu sinifdə oxuyurdu. Əmim mənə deyərdi ki, sən Müseyib, müəllimin yolunu davam etdirəcəksən. Deyəsən, Məmməd fizik olmaq istəyir. Allah qoysa yenə də Məmmədlə bir yerdə olun ki, biz iki qardaş necə mehriban olmuşuqsa, siz əmiuşaqları da bizim kimi mehriban olasınız.

Əfsuslar olsun ki, əmim dünyasını tez dəyişdi. Məmməd onda onuncu sinifdə oxuyurdu. Mən əvvəllər fikirləşirdim ki, əmimin başına bir iş gəlsə mən yaşamaram. Atam da elə fikirləşirdi.

Əmimin cənazəsi qəbristanlığa çatanda atam özü qəbrə düşdü ki, Novruzun yox, mənim üstümə torpaq tökün. Əmimdən sonra iki qardaşın (Novruzla, Heydərin) övladlarına Müseyib müəllim dayaq oldu. Böyük oğlu Vəli Əliyev universitetin fiolologiya və hüquq fakültəsini bitirdi. Təqaüdə çıxana qədər o, Tovuz rayon polis şöbəsində işlədi. İkinci oğlu Məmməd Əliyev Bakı Dövlət Universitetinin fizika fakültəsini, Kazan Dövlət Universitetində (KDU) aspiranturanı bitirmiş, 1969-cu ildə isə doktoruluq dissertasiyasını müdafiə etmişdir. 1969-1991-ci illər arasında ADU-da müəllim, baş müəllim, dossent, professor vəzifəsində çalışmışdır. 1971-1972-ci illərdə Parisdə məşhur Ecole Normale Superiorda (LENS) Nobel Mükafaı laureatı, Lazerin yaradıcılarından olan akademik Alfred Kasterlə birlikdə işləmiş, Buxarestdə, Parisdə. Grenbolda, Strasburqda, Varşavada, Poznanda, Kazanda, Novosibirskdə elmi konfranslarda, məruzələrlə çıxış etmişdir.

ABŞ-da, Fransada, Almaniyada, Polşada, Rumuniyada, Rusiyada elmi-məqalələri çap olunmuşdur. 1991-1992-ci illərdə Azərbaycan Tibb Universitetində kafedra müdiri vəzifəsində çalışmış, 1992-2005-ci illərdə Azərbaycan Respublikasının Türkiyədə, 2005-2009-cu illərdə İspaniyada səfiri olmuşdur. O, orta və ali məktəblərdə rus, alman dilini, sonra isə ingilis, ispan, türk dillərini öyrənmişdi. Məmməd Əliyev harda olursa olsun insanlarla ünsiyyət qura bilirdi. Danışıq mədəniyyəti, ağlı-kamalı ona imkan vermişdi ki, hər yerdə dost-tanış qazansın.

Onu da deyim ki, Gühər mamam bizə çox yaxşı baxırdı. Xüsusilə mənə daha çox diqqət verirdi. Biz Məmmədin anasına mama deyirdik. Anamızı isə adı ilə çağırırdıq. Əmim nə vaxt evə gəlsə əvvəlcə Gühər mamama baş çəkirdi. Bu ailədə qarşılıqlı hörmət vardı. Onu da deyim ki, Gühər mama qaynının uşaqlarına öz balaları kimi baxırdı. Ona görə də hər birimiz əmimgilə gələndə öz üzümüzü evimizdəki kimi hiss edirdik. Əsl Azərbaycan qadınına xas olan bütün xüsusiyyət Gühər mamada var idi. Bu yerdə dahi şairimiz S.Vurğunun anaya aid dediyi şeir yadıma düşdü.

Ananın qəlbinə toxunmaq olmaz,
Ana nəfəsindən çiçək də solmaz.
Yoxsa da dünyanın ucu-bucağı,
Hər yerdən istidir ana qucağı.

Heç vaxt Gühər mamamız bizim yadımızdan çıxmayacaq. Onun bizim ailəyə qarşı böyük hörmət və qayğısı olub. Allah rəhmət etsin.

Məmməd Novruzoğlu ilə bir yerdə olanda bir neçə hadisənin şahidi oldum.

Çənbərəkənddə olanda (keçmiş adıdır) bir erməni bizə yaxınlaşıb dedi ki,siz burda rahat yaşayırsınız, ancaq keçmişdə belə olmayıb.

Məmməd onun əlindəki kitabı vərəqlədi və bir neçə dəqiqə bəzi vərəqlərdəki yazı ilə tanış oldu. Sonra kitabı erməniyə verəndə əsəbi halda ona dedi ki, hələ uşaqsan, sən bu cür kitabı oxuyursan.

Sonra mən ondan soruşanda dedi ki, o kitab millətçilik xarakterində yazılmış kitabdır, bunlarla həmişə ehtiyyatlı olmaq lazımdır. Biz adətən sadəlövh insanıq. Hamıya inanırıq. Keçmiş tarixdə yazılan kitablarla tanış olduqda onlar bizim millətin ünvanına çox böhtan fikirlər söyləyiblər.

Bir ilisi biz tələbləri apararkən (uzaq çöl təcrübəsi adlanırdı) Volqaboyu üzrə, o cümlədən Kazan şəhərinə də getdik. Qalacaq yerimizi bu şəhəri seçdik. Buradan müxtəlif marşurutlarla, ayrı-ayrı yerlərlə tanış olurduq.

Bir dəfə tələbələri təcrübəyə apararkən Məmmədlə Kazanda görüşdük. Biz, bir neçə müəllim və iki qrup tələbələrlə getmişdik. O, öz hörmətindən istifadə edərək müəllim yoldaşlarımı qaldığı mehmanxanada, tələbələri isə başqa yerdə yerləşdirdi. Biz bir neçə gün orada qaldıq. Axşamlar Məmmədlə görüşürdük. Bu müddət ərzində onun dost-tanışları ilə tanış olduq. Hər gün onun dost-tanışları bizi qonaqlığa dəvət edirdi. Bəzi hallarda onların sözünü yerə salmırdıq. Hər dəfə görüşəndə Məmməd haqqında nə qədər xoş sözlər danışır, Azərbaycan xalqının ünvanına yaddaqalan fikirlər söyləyirdilər. Hər görüşdən sonra müəllim yoldaşlar deyirdilər:-Alı, sənin əmioğlu burda nə qədər hörmət qazanıb. Özü də hiss edirik ki, o, müxtəlif dillərdə danışa bilir. Biz heç rus dilində sərbəst danışa bilmirik. Bax alim belə olar.

Mən isə fərəhlənirdim. O yoldaşlar coğrafiyaçı olduqları üçün Müseyib müəllimi yaxşı tanıyırdılar. Hər dəfə deyirdlər ki, əmoğlu eyni ilə Müseyib müəllimə oxşayır. Bakıya gedəndə Müseyib müəllimə deyəcəyik. Sənin nə yaxşı dayın oğlu var, halal olsun!

Ömrünün 75-ci baharını yaşayan Məmmədlə fəxr edirəm. Çünki onun ömür yolu bizə, yəni yaxın qohumlarına, övladlarına, nəvə-nəticələrinə, eləcə də, tələbələrinə, dost-tanışlarına üzağlığı gətirir.

Məmməd müəllim, Sizə ən şirin nemət olan cansağlığı və könül xoşluğu arzu edirəm.






**Alı Heydər oğlu Əliyev,**
**Təbiətşünas alim, Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi**

# Mehtiyev Qasimi: “Nəhayət, mən də Pifaqor teoremi haqqında yeni bir fikir söyləyə bildim”

*Mehtiyev Qasimi Məcid oğlu 1954-cü il aprelin 26-da anadan olub. Orta təhsilini 1959-1969-cü illərdə alıb. Elə həmin il Gəncə Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsinin riyaziyyat ixtisasına qəbul olub. 1973-cü ildə ali məktəbi bitirdikdən sonra təyinatla Tovuz rayonu Hunan kəndində müəllimlik fəaliyyətinə başlayır. 1989-cu ildən isə Tovuz rayonu Əyyublu kəndi E.Bayramov adına tam orta məktəbində Riyaziyyat elminin tədrisi ilə məşğuldur.*

***- Sizin bu yaxınlarda Riyaziyyat elminin Həndəsə bölməsində Pifaqor teoremi ilə bağlı yeni bir təklifiniz oldu. Öncə irəli sürdüyünüz təklif haqqında söhbət açardınız.***

- Mənim 2016-cı ilin oktyabr ayının ortalarında “Təhsil problemləri” qəzetində ilk məqaləm dərc olundu. Məqalədə Düzbucaqlı üçbucaqların həlli metodunda Pifaqor ədədlərinin tapılmasının yeni bir qaydasını irəli sürmüşəm. Dünyada tanınmış alimlərdən Evklid, Leonardo da Vinçi, Ceyms Qarfild və digərləri Pifaqor teoremi haqqında öz fikirlərini söyləyiblər. Bu fikirləri biz daha çox 1940-cı ilə kimi görürük. Nəhayət, mən də Pifaqor teoremi üzərində işləyərək dörd düsturun köməyi ilə yeni bir fikir söyləyə bildim. Pifaqor teoremi ilə bağlı təklifim həm tək, həm də cüt natural ədədlər üçündür.

İrəli sürdüyüm bu yeniliyimi “Azərbaycan müəllimi” qəzetində çap etdirmək istədim. Düzü, məqaləm çap olunana kimi çox əziyyət çəkdim. Hətta yeniliyimi oğurlamaq istəyənlər də oldu. Redaksiya isə teoremin isbatını tələb edirdi və həmin dövrə kimi heç bir isbat verilməmişdir. Redaksiyaya ünvanladığım məktubu Bakı şəhərinin riyaziyyat təmayüllü bir neçə liseyinə göndərdilər. Nəhayət, bir gün teoremin geniş variantda isbatını verdim.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə müraciət etdim. Onlar isə məni Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinə yönləndirdilər. Bu agentliyə də müraciət etdim. Müəllif Hüquqları Agentliyində Elza xanım mənə köməklik göstərdi. Agentlikdən mənə bildirildi ki, bu təklifinizə komissiya baxmalıdır. Komissiya bu məsələyə baxdı və Riyaziyyat elmində irəli sürdüyüm bu təklifə müəllif hüququ verdi. Bu hadisə 2017-ci il aprel ayının 4-nə təsadüf etdi.



Bundan sonra 2017-ci il aprelin 29-da “Azərbaycan müəllimi” qəzetində məqaləm dərc olundu.

Artıq müəllif hüququ aldıqdan sonra qəzet, jurnal və televiziyalar məni işıqlandırdılar.

“Azad Azərbaycan”, “Türküstan”, “Tovuz”, “Azərbaycan müəllimi” və s. qəzetlərdə Riyaziyyat elmində olan yeniliyim haqqında məqalələr dərc olundu. Jurnalist Kamran Əskiparalı mənim yeniliyim haqqında çəkiliş hazırlayaraq “Səstv”, “İnteraz”, “Dünyatv” və s. kanallarda işıqlandırdı.

***- Bu yeniliyinizlə bağlı Tovuz Rayon Təhsil Şöbəsi və Təhsil Nazirliyi sizi müvafiq fərman və medallarla təltif edib. Bu haqda da söhbət açardınız.***

- Öncə qeyd edim ki, rayon müəllimləri qarşısında bu yeniliklə bağlı çıxışım oldu. Rayon müəllimləri və xüsusilə riyaziyyatçılar mənə çoxlu suallar verdilər. Azərbaycan Respublikası Təhsil Şurasının sədr müavini Böyükağa Mikayıllı bu yeniliyimlə bağlı qonağım oldu və Riyaziyyat elmindəki yeni təklifim haqqında dəyərli fikirlər söylədi.

Bir daha yeniliyimlə bağlı 2017-ci ilin avqust konfransında rayon müəllimləri qarşısında geniş tərkibli çıxışım oldu. Bir müddətdən sonra Rayon Təhsil Şöbəsi mənimlə əlaqə saxladı ki, bu yeniliyinizlə bağlı Təhsil Nazirliyi sizi mükafatlandırıb. Tovuz rayonu üzrə yeganə olaraq “Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi döş nişanı” rayon müəllimlərinin qarşısında Təhsil Şöbəsinin müdiri Validə xanım tərəfindən mənə təqdim olundu.

Əldə etdiyim bu uğura görə Prezidentimizə, sabiq təhsil naziri Mikayıl Cabbarova, Tovuz Rayon İcra Hakmiyyətinin başçısı Tofiq Zeynalova, Rayon Təhsil Şöbəsinin müdiri Validə Hüseynovaya, məktəbin direktoru Afət Qocayevaya dərin minnətdarlığımı bildirirəm. Burada, həmçinin AYB-nin üzvü, “Media və təhsil innovasiyaları” jurnalının təsisçisi Səidə Hüseynovaya və direktor müavini Məhərrəm Qasımova da öz dərin təşəkkürlərimi bildirirəm.

Xüsusilə qeyd etmək istərdim ki, Rayon Təhsil Şöbəsinin müdiri Validə xanım mənim məqalələrimi diqqətlə oxuyur və münasibətini bildirir. Hər zaman yeni təkliflərimə xoş münasibət bəsləyib.

***- Qasimi müəllim, uzun müddət şagirdlərin maariflənməsində yaxından iştirak etmisiniz. Riyaziyyat elmi isə ən çətin elmlərdən biridir. Bir müəllim kimi xoşbəxtsiz?***

- Əlbəttə, xoşbəxtəm. Müəllimlik ən ülvi bir peşədir. Yenə dünyaya gəlsəydim riyaziyyatçı olardım. Şagirdlərimdən bir çoxu Respublika olimpiyadalarında iştirak edərək müvafiq yerlər tutublar. Dərs dediyim şagirdlərim arasında çoxlu alimlilik dərəcəsi alan və respublikamızın bir çox nazirliklərində işləyənlər var. Hətta bu gün mənimlə işləyən müəllim yoldaşlarımın bir çoxu keçmiş şagirdlərimdir. Misal üçün, məktəbin direktoru Afət Qocayeva vaxtilə şagirdim olub.

***- Sonda gənclərimizə nə sözünüz var.***

- Arzu edirəm ki, gənclər öz üzərlərində çalışsınlar. Hər zaman yeniliyə can atsınlar. Oxumaqdan, öyrənməkdən heç bir zaman yorulmasınlar.

***Söhbəti qələmə aldı:***
***Mahmud Əyyub***

**Oxucu sözü**

# Tarix yaşadacaq əməllərini



2017-ci il arxada qaldı. Günügündən gözəlləşən Tovuzumuz bir çox sahələrdə uğurlu işlərə imza atdı. Xalqımız bu ildə əmin-amanlıq, sülh şəraitində yaşadı. Ölkə başçımız cənab İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi və qarşıda duran vəzifələrin daha ciddi olduğunu səsləndirdi.

Mən bir söz adamı kimi, deyə bilərəm ki, biz sərhəd kəndində rahat yaşayırıq və gündəlik qayğılarımızla məşğuluq. Rayonumuza rəhbərlik edən cənab Tofiq Zeynalov bizlərlə hər görüşündə bu sözləri deyir: “Bizim Prezidentimiz deyir ki, məmurlar xalqın xidmətçiləridir”. Bu bizi daha məsuliyyətli olmağa çağırır. Biz yaxşı başa düşürük ki, xalqla bir yerdə olmaq, onun dərdi-sərinə yanmaq nəinki vəzifə, vətəndaşlıq borcumuzdur.

Mən bir neçə kitab müəllifiyəm. Yazıçılar və Jurnalistlər Birliyinin üzvüyəm. Bir neçə mükafatlar almışam. “Qızıl qələm” mükafatı laureatıyam. Həmişə də sözümü açıq və düz demişəm. Yaşım da az deyil. Yadıma gələn illərdə Tofiq Zeynalov kimi doğulduğu torpağı, yurdu, Azərbaycanımızı sevən nə katibə, nə icra başçısına rast gəlmişəm. Bu, onu deməyə əsas verir ki, həqiqətən də torpağını, yurdunu sevən insanlar üçün torpağa, yurda xidmətdən qiymətli heç nə yoxdur.

Həmişə deyiblər ki, hər bir kəs elə etməlidir ki, ondan yaxşı əməlləri qalsın. Bu isə hər kəsə nəsib olmur. Tofiq Zeynalov əməlləri ilə xalqın yaddaşında, xüsusən də tovuzluların yaddaşında sağlığında özünə abidə ucaltmış insanlardandır. Onun üçün Tovuzda və ondan kənarda yad insan yoxdur. Yurda, torpağa bağlılığı onu göstərir ki, harada, hansı vəzifədə işləməsindən asılı olmayaraq hər bir kəs üzərinə düşən işin öhtəsindən layiqincə və ləyaqətlə gəlməlidir.

Çəkilən yollar, tikilən məktəb binaları, saysız-hesabsız istirahət mərkəzləri, şadlıq sarayları göz oxşayır. Bunların sayını artırmaq da olar. Çox deyilib, çox yazılıb. Yenə də azdır. Və inanıram ki, yaxşı mənada nə varsa hamısı geniş dünya görüşünə, böyük fəlsəfi təfəkkürə malik bir insan-Tofiq Zeynalov haqqında deyiləcək sözlərin, yazılacaq əsərlərin başlanğıcıdır. Bir mənalı şəkildə deyirəm ki, o, özü bunları bəyənməsə də hər cür alqışa və hörmətə layiqdir.

Ona görə də Sizdən xahiş edirəm ki, ürəyimdən gələn bu sözləri qəzetinizdə çap edəsiniz.

Ədəb-ərkan, ağayana görkəmi,
Başçı görməmişəm Zeynalov kimi.
Riqqətə gətirdi şair qəlbimi,
Bizə çox görməsin Allah başçını!

Arxadır, dayaqdır elə, elata,
Yaxşı işlər üçün gəlib həyata.
Kiminə qardaşdır, kiminə ata,
Bizə çox görməsin Allah başçını!

Seçməz bir-birindən sakinlərini,
Unutmaz insafı, unutmaz dini.
Tarix yaşadacaq əməllərini,
Bizə çox görməsin, Allah başçını!

***Maarif Həsənoğlu,***
***Əsrik Cırdaxan kəndi***


# Hörmətli oxucular!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı olan

**“Tovuz”**

qəzetinə 2018-cı ilin birinci yarısı üçün abunə yazılışına başlanıb. Qəzetin yarım illik abunə qiyməti 20 manatdır. Qəzetə “Kapitalbank”ın Tovuz filialında abunə yazılmaq olar.



**BAŞ REDAKTOR**
**Çingiz Qəribli**

**Ünvanımız:**
***Tovuz şəhəri, Şəhriyar küçəsi, 3,***
***Telefon: 315-35-23***
***tovuz.1929@mail.ru***

***Redaksiyaya göndərilən əlyazmalar geri qaytarılmır. Dərc olunan məktublardakı faktlara və elanların məzmununa görə redaksiya məsuliyyət daşımır.***

***Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və “Mətbuat firması” mətbəəsində çap olunmuşdur.***
***Sifariş876. Tiraj: 1500.***